QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 216 (4715) **22 noyabr** 2014-cü il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Son on ildə Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb, yoxsulluq və işsizlik kəskin şəkildə azaldılıb"




Səh 2

14

Müsavatçılar Arif Hacılını məhkəməyə verir

MÜSAVAT

4

"Heydər Əliyevi qəsdən Naxçıvan deyil, Naftalan təyyarəsinə mindirmişdilər..."



16

"Lionel "Barselona"da xoşbəxtdir"



# İlham Əliyev: “Son on ildə Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb, yoxsulluq və işsizlik kəskin şəkildə azaldılıb”









Noyabrın 21-də Bakıda Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyası işə başlayıb. İki gün davam edəcək tədbirin rəsmi açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak ediblər.

Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyası qarşıdakı dövrdə həllini gözləyən bir çox məsələlərin müzakirə olunması və həyata keçirilməsi baxımından mühüm tədbirdir. Avropa ölkələrinin Milli Olimpiya komitələrinin nümayəndə heyətlərinin, beynəlxalq idman qurumlarının rəhbərlərinin iştirak etdikləri Assambleyada “Olimpiya Oyunları”, “Marketinq və rabitə”, “İdman hamı üçün”, “Olimpiya mədəniyyəti və irsi”, “Tibb və antidopinq”, “İdmanda gender bərabərliyi” və digər mövzularda hesabat məruzələri, o cümlədən ilk Avropa Oyunları barədə məlumat və “Bakı-2015” Əməliyyat Komitəsinin hesabatı da dinləniləcək. 2016-cı il Yay Olimpiya, XXIII Qış Olimpiya oyunlarına və Avropa Yeniyetmələrinin Olimpiya Festivalına hazırlıq işlərinin gedişi ilə bağlı hesabatlar da Assambleyanın gündəliyinə daxildir.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar. Dövlətimizin başçısı və xanımı Avropa Olimpiya Komitəsinin rəhbər heyəti ilə görüşdülər. Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasında çıxış edən Prezident İlham Əliyev tədbirdə iştirak edən qonaqları salamladı. Qədim tarixi və gözəl mədəniyyəti olan ölkəmizlə tanışlıq üçün bu tədbirin əla fürsət olduğunu dedi. Bildirdi ki, 23 il öncə öz müstəqilliyini bərpa edən Azərbaycan Avropa Olimpiya Komitəsinin üzvü kimi Avropa təsisatlarında fəallığı ilə seçilir. Ölkəmizdə siyasi və demokratik islahatların aparıldığını, bunun da sürətli inkişafa təkan verdiyini deyən dövlətimizin başçısı hazırda Azərbaycanın dünyada multikulturalizmin əsas mərkəzlərindən biri kimi tanındığını vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, son on ildə sürətlə inkişaf edən Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb, yoxsulluq və işsizlik kəskin şəkildə azaldılıb, yeni iş yerləri açılıb və uğurlu iqtisadi islahatlar beynəlxalq maliyyə təşkilatları tərəfindən də qeyd olunub. “Ölkəmizin enerji təhlükəsizliyi sahəsində oynadığı rol Avropa təsisatları ilə əməkdaşlıqda mühüm əhəmiyyətə malik olacaq”, - deyən Prezident İlham Əliyev Avropa ilə Asiya arasında körpü olan Azərbaycanın dünyada çoxmədəniyyətliliyin mühüm mərkəzlərindən biri kimi tanındığını da diqqətə çatdırdı. Qeyd etdi ki, beynəlxalq ictimaiyyətin fəal üzvü olan ölkəmizin dünyada mövqeləri güclüdür və iki il ərzində BMT Təhlükəsizlik Şurasına üzv olan, onun sessiyalarına sədrlik edən Azərbaycan dünya tərəfindən dəstəklənir.

Azərbaycanda idmanın və Olimpiya hərəkatının inkişafından da danışan Prezident İlham Əliyev bu sahədə əsas prinsiplərin təşviq olunmasına böyük maraq göstərilən ölkəmizdə son illərdə nəhəng idman infrastrukturunun yaradıldığını diqqətə çatdırdı. Qeyd etdi ki, Azərbaycan atletlərinin beynəlxalq yarışlarda, Olimpiya Oyunlarında qazandığı uğurlar müstəqil ölkəmizin dünyada daha yaxşı tanıdılmasına imkan verir.

Dövlətimizin başçısı 2015-ci ildə Bakıda keçiriləcək ilk Avropa Oyunlarının yüksək səviyyədə baş tutacağına əminliyini bildirdi. 2016-cı ildə Bakıda Dünya Şahmat Olimpiadasının, 2017-ci ildə isə İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyini deyən Prezident İlham Əliyev bunun da ölkəmizin böyük potensialından qaynaqlandığını söylədi.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax Azərbaycanda idmana və təhsilə qoyulan sərmayələrin uğurlu nəticələrin əldə olunmasına təkan verdiyini söylədi. O qeyd etdi ki, bunlar həm də idmançıların nailiyyətlər qazanmasına da imkan verir. Tomas Bax əmin olduğunu bildirdi ki, gələn il Bakıda baş tutacaq Avropa Oyunları yüksək səviyyədə keçəcək və Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın təşəbbüsləri bu oyunların uğurlu alınmasına stimul verəcək. Tomas Bax idmanın BMT-nin inkişaf məqsədləri sırasına daxil olunması ilə bağlı danışıqların aparıldığını dedi və idman tədbirləri baxımından gərgin qrafiki ilə seçilən gələn il ərzində hamıya uğurlar arzuladı.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki bu Assambleyanın Bakıda yüksək səviyyədə təşkil edildiyinə görə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya minnətdarlıq etdi. Bakının füsunkar və gözəl şəhər olduğunu deyən Patrik Hikki əminliyini bildirdi ki, Avropa mühüm tarixi ana yaxınlaşır və bu 43-cü Baş Assambleya həm gələn il keçiriləcək Avropa Oyunlarını, digər tərəfdən Tokio Yay Olimpiya Oyunlarına hazırlıq işlərini müzakirə etmək baxımından mühüm tədbirdir. Sonra Patrik Hikki Avropa Olimpiya Komitəsinin xatirə hədiyyələrini Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təqdim etdi. Daha sonra Patrik Hikki idman karyerası ərzində bir çox uğurlara nail olan, dünyada idmanın inkişafında mühüm xidmətlər göstərən, Olimpiya ideallarına sadiqliyi ilə seçilən Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxa Avropa Olimpiya Komitəsinin “Şöhrət” medalını təqdim etdi.

Bununla da Baş Assambleyanın rəsmi hissəsi başa çatdı.

# Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlər siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf edir

## *Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın vitse-prezidentini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin Assambleyasının 3-cü sessiyasının işində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının vitse-prezidenti xanım Marqarita Popovanı qəbul edib.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Bolqarıstan Respublikasının vitse-prezidenti xanım Marqarita Popova Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin Assambleyasının 3-cü sessiyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi. O, Azərbaycan Prezidentinin konfransa ünvanlandığı müraciətin əhəmiyyətini xüsusi vurğuladı. Söhbət zamanı Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin Assambleyasının 3-cü sessiyasının Bakıda keçirilməsinin önəmi qeyd olundu, sessiyada müzakirə edilən məsələlərin bu sahədə qarşılıqlı təcrübə mübadiləsinin aparılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.



## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyanın yeni seçilmiş prezidenti Klaus İohannisə təbrik məktubu göndərib. Məktubda deyilir: “Hörmətli cənab İohannis. Rumıniyanın prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Azərbaycan və Rumıniyanı möhkəm dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri birləşdirir. Bu gün bu münasibətlər dinamik və hərtərəfli inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ümidvaram ki, xalqlarımızın rifahı naminə istər ikitərəfli qaydada, istərsə də regional və beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlığımızı daha da genişləndirmək üçün birgə səylər göstərəcəyik. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Rumıniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram”.

Azərbaycan Prezidenti İlham Əliyev Livan Respublikası Nazirlər Şurasının sədri Tammam Salamı ölkəsinin milli bayramı münasibəti ilə təbrik edib. Dövlət başçısının məktubunda deyilir: “Hörmətli cənab sədr, Livan Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm. Bu əlamətdar gündə sizə ən xoş arzularımı yetirir, dost Livan xalqına sülh və rifah diləyirəm”.

# Y.Qusman: Çox istəyirsən ki, bir anlığa Azərbaycan adlanan mehriban və əsrarəngiz diyarda olasan

AzərTAc-ın xəbər verdiyi kimi, rejissor Yuli Qusmanın “Qorxma, mən səninləyəm! 1919” filminin təqdimatı Moskvada böyük müvəffəqiyyətlə keçib. Filmdə baş rolda Azərbaycanın Xalq Artisti Polad Bülbüloğlu çəkilib. Rusiya Dövlət İnformasiya Agentliyi - TASS filmin baş rejissoru Yuli Qusman ilə müsahibə dərc edib.

İkinci “Qırxma, mən səninləyəm! 1919” filminin yaradılması ideyasından söz açan rejissor bildirib ki, 33 il əvvəl birinci “Qorxma, mən səninləyəm!” filmi çəkiləndə çəkiliş qrupu ayrılmaq istəməyib. Rejissor deyib: “Polad Bülbüloğlu, Lev Durov, Muxtarbek Kantemirov güclü komanda, çox gözəl insanlardır. Əlbəttə, ayrılmaq bizə bir qədər ağır gəlirdi. Yenə bir yerdə işləmək istəyirdik. Bu film sanki çoxdan gözlədiyimiz körpə idi. Mən ancaq insanlara sevinc bəxş etmək istəyirəm. Mənə belə gəlir ki, yetərincə ağır olan müasir dövrümüzdə çox istəyirsən ki, cansıxıcı havadan, rubl və ya hərbi əməliyyatlarla bağlı xoşagəlməz xəbərlərdən, heç olmazsa, bir anlıq ayılıb Azərbaycan deyilən mehriban və əsrarəngiz diyara düşəsən, bir anlıq bütün pisliklərdən və bədbəxtliklərdən uzaq, macəralar və qələbələrə sevinən uşağa çevriləsən.

Filmin mərhəmət, xeyirxahlıq və məhəbbət kimi dəyərlərə həsr edildiyini vurğulayan Y.Qusman deyib: “Biz istəyirdik ki, mənim Bakıda boya-başa çatanda və bizim ilk filmi çəkəndə keçirdiyimiz hisslər ekrandan səslənsin və təkcə mahnı və şeirlərdə eşidilməsin, həm də bizim münasibətimizdə əksini tapsın. Mənim boya-başa çatdığım Bakı şəhərində hansı millətin nümayəndəsi, yaxud varlı və ya kasıb olmağın barədə anlayış ümumiyyətlə olmayıb”.

Rejissorun sözlərinə görə, qrup çəkilişlər zamanı Azərbaycana Rusiyanın böyük aktyor və kinematoqrafçılarından ibarət 70 nəfərlik qrup gəlib. Y.Qusman deyib: “İlk iki gündə sanki iynə üstündə oturmuşdular. Hər halda Azərbaycan başqa bir ölkə idi. Doğrudur, onun barəsində çox oxumuş, çox eşitmişdilər. Düz iki gün sonra başqa adam oldular. Orada özlərinə yaxın insanlar, dostlar tapdılar, dadlı yeməklər verilən gözəl yerlər tanıdılar. Belə yerlər isə çoxdur. İndi onlar Bakıya gəlmək arzusundadırlar. Mənə belə gəlir ki, məhz kinematoqrafın və incəsənətin çəkdiyi bu körpüləri nəinki dəstəkləməliyik, həm də hər vəchlə alqışlamalıyıq.

Y.Qusman TASS-a müsahibəsində çəkilişlərin aparıldığı İlisu qəsəbəsindən də danışaraq deyib: “Bir vaxtlar qorxunc vəziyyətdə olan yollar bu müddət ərzində çox gözəl avtomobil yollarına çevrilib. Həqiqətən, Azərbaycan bu 20 ildə fürsəti əldən verməyib. Həmin kiçik qəsəbədə hazırda dəbdəbəli kottec və otellər var. Biz çayın sahilindəki talanı zorla tapdıq. Sakinlər elə həmin sakinlərdir, lakin ətrafda hər şey dəyişib. İsveçrədəki kimi olub”.



# “Cənub” qaz dəhlizi layihəsi üzrə ilkin mərhələdə 23,4 milyard kubmetr qaz nəql ediləcək

***Ümumi dəyəri təxminən 45-50 milyard dollar olacaq “Cənub” qaz dəhlizi layihəsi üzrə ilkin mərhələdə 23,4 milyard kubmetr qaz nəql ediləcək.***

Boru kəməri tam gücü ilə işlədikdən sonra bu göstəricinin 33 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. AzərTAc xəbər verir ki, bu barədə “Azərbaycan və Xəzər dənizi neft və qaz həftəsi” çərçivəsində noyabrın 21-də Bakıda öz işini davam etdirən konfransın ikinci günündə “Cənub” qaz dəhlizi” Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Əfqan İsayev məlumat verib.



# Siyavuş Novruzov: “Heydər Əliyevi qəsdən Naxçıvan deyil, Naftalan təyyarəsinə mindirmişdilər...”



*Hakim Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzovun Publika.az-a müsahibəsi:*

**- YAP-ın yaranmasının 22 ili tamam olur. Siz partiya yaranandan bəri onun üzvüsünüz. Hətta belə bir deyim də var: Siyavuş Novruzov YAP-da saç ağartdı. İstərdim ki, YAP-ın keçdiyi bu 22 ili bir də yada salaq...**

- İlk növbədə onu qeyd edim ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət idi. Hətta hərdən bizim partiyaya deyirlər ki, YAP zərurətdən yaranan partiyadır. 90-cı illərin əvvəllərində artıq siyasi sistem dəyişmişdi, yəni Sovetlər İttifaqı yenicə dağılmışdı və yeni sistem formalaşırdı. Həmin dövrdə bir çox adamlar siyasi partiya yaratmağa başladılar. Hərə bir partiya yaradırdı. Kimi millətçi, kimi sosial-demokrat, kimi mərkəzçi və sairə mövqeli siyasi partiyalar yaratdı. Əslində, bu partiyalar həmin ərəfədə yaranmış boşluğu doldurmaq məqsədi güdürdü. Bu gün Azərbaycanda 100-ə yaxın siyasi partiya var, bunun da 50-si Ədliyyə Nazirliyi tərəfindən qeydiyyatdan keçib. Bu partiyaların da böyük əksəriyyəti həmin dövrdə yaranıb. Ancaq sonradan bu partiyaların böyük əksəriyyəti özlərini doğrultmadı və necə yaranmışdılarsa, eləcə də kağız üzərində qaldı. Amma Yeni Azərbaycan Partiyası doğrudan da ehtiyacdan yaranan partiya oldu. Bu da nədən irəli gəlir? Çünki o dövrdə hakimiyyətin qanunu və hüquqi yeganə yolu seçkilər yolu idi.

Məhz Yeni Azərbaycan Partiyası hakimiyyətə seçkilər yolu ilə gəlməklə digər siyasi partiyalara nümunə oldu. O dövrdə Azərbaycanda xaos və hərc-mərclik hökm sürürdü. Həmin vaxtı Azərbaycan xalqı və cəmiyyəti düşünürdü ki, Azərbaycanı bu düşdüyü vəziyyətdən ancaq Heydər Əliyev xilas edə bilər. Bu baxımdan da Heydər Əliyevin hakimiyyətə gəlməsinin yolları aranırdı. Bu yollardan da ən əsası siyasi partiya vasitəsilə Heydər Əliyevin hakimiyyətə gəlməsi idi. Ümummilli lider Heydər Əliyevin nüfuzu o qədər böyük idi ki, istər-istəməz partiyanın yaradılması prosesi bütün respublika üzrə tez zamanda uğurla başa çatdı. Ulu öndər hakimiyyətə gələnədək, yəni, 1988-ci ildən 1993-cü ilədək Azərbaycanda 5 nəfər birinci şəxs oldu. Ancaq hamısı da bir il və ya 5-6 ay hakimiyyətdə qaldı. Təbii ki, bütün bunların xalqa təsiri çox idi. Çünki hər gələn adam yeni komanda gətirirdi, müxtəlif dəyişikliklər baş verirdi və sairə. Ulu öndərə qədər hakimiyyətə gəlmiş 5 nəfərin idarəçilik qabiliyyəti yox idi, ona görə də həmin dövrdə Azərbaycanda böyük çətinliklər yaşanırdı. Azərbaycanda çox ciddi anarxiya və xaos yaranmışdı. Ölkə vətəndaş müharibəsi ərəfəsində idi. Bir tərəfdən Azərbaycanda separatizm baş alıb gedirdi, digər tərəfdən isə ərazilərimiz işğal olunurdu.

Həmin ərəfədə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədri seçildi və o, çox böyük işlər gördü. Müstəqillik qazandıqdan sonra ilk dəfə Azərbaycanın üçrəngli bayrağı Naxçıvanda qaldırıldı, “Sovet Sosialist Respublikası” sözləri burada çıxarıldı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü Naxçıvanda elan olundu. O dövrdə Qarabağın ayrı-ayrı bölgələrində bir çox insanlar itkin düşürdü. O zaman iqtidarda olan adamlar dövləti idarə edə bilmirdi. Ölkədə anarxiya və xaos yaranmışdı. İnsanların müraciət etməyə ünvanı yox idi, şikayətlərə baxan olmurdu. Buna görə də həmin illəri bir çox valideynlər məcburiyyət qarşısında qalıb Naxçıvanda Heydər Əliyevin yanına üz tuturdular, ondan şikayətlərinə baxılmasın xahiş edirdilər. Heydər Əliyev də imkan daxilində çalışırdı ki, insanların şikayətlərinə baxılsın, problemləri həll edilsin. Ulu öndər Heydər Əliyevin insanlara qarşı bu cür yardım göstərməsi və insanların da ancaq ümummilli liderdən kömək istəmələri o dövrdə hakimiyyətdə olan AXC-Müsavat və Ayaz Mütəllibov hakimiyyətini ciddi narahat edirdi. Ona görə də o zaman iqtidarda olan şəxslər Azərbaycanın Konstitusiyasının 121-ci maddəsinin ikinci bəndinə belə bir düzəliş etdi ki, yaşı 65-dən çox olan şəxs prezident seçilə bilməz. Həmin vaxtı Heydər Əliyevin də 68 yaşı var idi. Təbii ki, bu addım bilavasitə Heydər Əliyevin prezident olmaq üçün yolunu kəsmək məqsədi daşıyırdı. Heydər Əliyevə qarşı digər Konstitusiya dəyişikliyi isə onun Milli Məclisin sədr müavini olması ilə bağlı oldu. Yəni, əvvəllər Naxçıvan Ali Məclisin sədri həm də Milli Məclisin sədr müavini olurdu və parlamentdə yuxarı kürsüdə əyləşirdi. Ancaq Heydər Əliyev Naxçıvan Ali Məclisinə sədr seçilən kimi, o vaxtkı hakimiyyət Konstitusiyaya dəyişiklik etdi. O dövrdə YAP-ın yaranmasına qarşı daxildən kifayət qədər təzyiqlər var idi. Ayaz Mütəllibov və AXC-Müsavat hakimiyyətləri Heydər Əliyevə görə Naxçıvanı blokada vəziyyətində saxlayırdı. Təsəvvür edin ki, o zaman Naxçıvanı Ermənistan ilə yanaşı, Azərbaycan hökuməti də blokadaya almışdı. Dövlət büdcəsindən Naxçıvana ayrılan vəsaitlər ödənilmirdi, ərzaq məhsulları çatdırılmırdı və sairə. Bütün sahələrdə Naxçıvana qarşı təzyiqlər var idi. Belə bir vəziyyətdə Azərbaycan xalqının bir qrup tanınmış insanı o vaxtkı Ali Sovetin binası qarşısında 18 gün mitinq keçirdilər. Tələb Konstitusiyanın 121-ci maddəsinin 2-ci bəndinin ləğv olunması və ümummilli lider Heydər Əliyevin prezidentliyə namizədliyinin qeydə alınması idi. O vaxtın qanunlarına görə, prezidentliyə namizədləri ancaq seçici qurumları deyil, hər hansı müəssisə və təşkilatlar da irəli sürə bilərdi. O zaman qısa müddət ərzində Azərbaycanda 300-dən çox müəssisə və təşkilat ulu öndər Heydər Əliyevin namizədliyini irəli sürmüşdü. Bu prosesin iştirakçılarından biri də şəxsən mən olmuşam. Rəhmətlik Cəfər Vəliyev də Mərkəzi Seçki Komissiyasının sədri idi. O zaman ulu öndərin də prezidentliyə namizədliyinin qeydə alınması üçün Cəfər Vəliyevin yanına getdik. Həmin vaxtı Əbülfəz Elçibəy, Etibar Məmmədov, Nizami Süleymanov və digər bir neçə şəxslər prezidentliyə namizədliyini irəli sürmüşdü. Təxminən 7 nəfər namizəd var idi. Ümummilli lider Heydər Əliyevin də namizədliyi 300 müəssisə və təşkilat tərəfindən irəli sürülmüşdü. Təbii ki, bütün bunlar digər namizədləri qorxuya salmışdı. Adam gərək haqla danışsın, o dövrdə MSK sədri Cəfər Vəliyev məsələyə çox ədalətlə yanaşdı və dedi ki, Heydər Əliyev hakimiyyətə gəlməsə, bu ölkə düzəlməyəcək. Ancaq çox təəssüf ki, Konstitusiyada olunan dəyişiklik mənə imkan vermir ki, Heydər Əliyevin namizədliyini qeydə alım. Buna görə də o vaxt MSK Heydər Əliyevin namizədliyini qeydə almadı. Əgər yadınıza gəlirsə, o vaxt Nizami Süleymanov belə bir fikir də söyləmişdi: 7 namizədik. 7-ni 7-yə vursaq belə, yenə də Heydər Əliyevi əvəz edə bilmərik. Bütün bunlardan sonra belə bir qərar verildi ki, Heydər Əliyevin hakimiyyətə gəlməsini süni əngəlləyən şəxslərə qarşı mübarizə davam etdirilsin. Xalqın böyük əksəriyyəti də bunu tələb edirdi. Mübarizənin sivil forması isə yeni siyasi partiyanın yaranması idi. 1992-cü il mayın 28-də Naxçıvanda “Ümid körpüsü”nün açılması münasibətilə mən də rəhmətlik Murtuz Ələsgərovla birgə Naxçıvana getmişdim. O vaxt mən “Əlincə” Cəmiyyətinin məsul katibi idim, Murtuz müəllim isə bu cəmiyyətin Ağsaqqallar Şurasına rəhbərlik edirdi, həm də “Əlincə” Cəmiyyətinin İdarə heyətinin üzvü idi. Biz Naxçıvana gedəndə, ilk dəfə siyasi partiya yaradılması məsələsi burada müzakirə olundu. Həmin vaxtı mən, Murtuz Ələsgərov, Ziyafət Əsgərov və Munis Bayramov bir yerdə idik. Dördümüz də ilk dəfə bu müzakirələrdə iştirak etdik. Biz ilk dəfə ona siyasi partiyanın yaradılması və digər bu kimi məsələlərlə bağlı fikir söylədik. Təbii ki, Ümummilli lider o zaman partiyanın yaradılması ilə bağlı bu təklifə nə “hə”, nə də “yox” demədi. Sonra isə 1992-ci ilin iyun və iyul aylarında Əli Nağıyevin rəhbərliyi altında bir qrup ziyalı Naxçıvana getdilər və partiyanın yaradılması ilə bağlı müzakirələr aparıldı. Sonralar isə belə bir qərar verildi ki, bu məsələ ilə bağlı Azərbaycanın tanınmış ziyalılarına müraciət edilsin. Sonradan bu müraciət tarixə “91-lər”in müraciəti kimi düşdü. Bu gün çox təəssüf ki, “91-lər”lə bağlı bir sıra ziddiyyətli fikirlər söylənilir. Ancaq mən bilavasitə bu proseslərin yaxından iştirakçısı olmuşam. Ona görə də deyim ki, həmin vaxtı imza toplama prosesi çox çətin idi. İndi bir neçə adam telekanallarda sinəsinə döyüb deyir ki, mən də “91-lər”ə imza atan adamlardan biriyəm və sairə. Az qalır ki özünü Yeni Azərbaycan Partiyasının yaradıcısı kimi aparsın. Ancaq vaxtilə onların qapısını döyəndə, “91-lər”ə imza atmaqdan imtina etmişdi. Bu cür şəxslər kifayət qədərdir və məndə bunların hamısının siyahısı var. Bu adamların adları həm öz yaddaşımda, həm də partiyanın arxivində mövcuddur. O vaxt “91-lər”ə imza atılması ilə bağlı bir neçə qrup fəaliyyət göstərirdi. Onların hər biri parlamentin deputatlarından, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), universitetlərin işçilərindən, incəsənət xadimləri və digər sahələrin tanınmış nümayəndələrindən imzalar toplayırdı.

Bilirsiniz ki, Ulu öndər Heydər Əliyevin mədəniyyət və incəsənət sahəsinə çox böyük diqqət və qayğı göstərirdi. O, hər zaman mədəniyyət və incəsənət xadimlərini təltif edirdi, mənzillər verilirdi, irəli çəkirdi və sairə. Bu gün də bu siyasət cənab Prezident tərəfindən davam etdirilir. Ancaq çox təəssüf ki, o dövrdə yazıçılar və mədəniyyət adamları arasından həmin “91-lər”ə cəmi 4 nəfər imza atmışdı. Bunlar Xəlil Rza Ulutürk, Zeynəb Xanlarova, Sirus Təbrizli və Ömər Eldarov idi. Baxmayaraq ki, hamısına müraciət olunmuşdu, ancaq yazıçılar, rəssamlar, mədəniyyət nümayəndələrindən cəmi 4 nəfər bu müraciətə imza atmışdı. Sovet İttifaqı dövründə Heydər Əliyevin yetişdirdiyi kadrlar var idi. Həmin adamlar Heydər Əliyev tərəfindən ayrı-ayrı dövlət vəzifələrinə də irəli çəkilmişdi. “91-lər”ə imza atılan zaman onlara da müraciət olundu. Ancaq onların böyük əksəriyyəti buna imza atmaqdan imtina etdi. O zaman Pedaqoji Universitetdə “91-lər”ə imzaları Həsən Mirzəyev toplayırdı. O dövrdə Həsən Mirzəyev bizə dedi ki, filankəsin də adını siyahıya yazın. Biz də yazdıq. Səhəri günü onun adı qəzetdə çıxanda, bizi məhkəməyə verirdi ki, mən ona imza atmamışam, adımı ora salıblar və sairə. Lakin Heydər Əliyev hakimiyyətə gələn kimi, hamıdan birinci o adam gəlib qapını kəsdirdi ki, mən də “91-lər”dənəm, özü də ən fəalından. Halbuki, o adam vaxtı ilə bizi məhkəmə ilə hədələyirdi. Həmin “91-lər” Yeni Azərbaycan Partiyasının qızıl fondudur. Yeni Azərbaycan Partiyası yaranan ərəfədə ulu öndər Heydər Əliyev də bəyan etdi ki, əgər bu partiya yaranarsa, o zaman mən bu partiyaya sədrlik edə bilərəm. Həmin vaxtı Milli Məclisdə təmsil olunan 350 nəfər deputatdan cəmi 4 nəfəri “91-lərə” imza atdı. Halbuki, həmin 350 nəfərin böyük əksəriyyəti Heydər Əliyevin çörəyi ilə böyümüş insanlar idi. Heydər Əliyev onları müxtəlif vəzifələrə yüksəltmişdi, onun kadrları idi. Bu cür hallar çox olub. İndi görürsən ki, bəzi adamlar Heydər Əliyev haqqında bərli-bəzəkli kitablar yazır. Ancaq həmin adamlara vaxtilə müraciət olunanda, “91-lər”ə imza atmamışdı. İndi o adamlar Heydər Əliyev haqqında xatirə yazır ki, guya mən onun ən sevimli kadrı idim və sairə. Bu tarixdir və tarixdə də qalacaq.

*“O zaman iqtidarda olan şəxslər Azərbaycanın Konstitusiyasının 121-ci maddəsinin ikinci bəndinə belə bir düzəliş etdi ki, yaşı 65-dən çox olan şəxs prezident seçilə bilməz. Həmin vaxtı Heydər Əliyevin də 68 yaşı var idi. Təbii ki, bu addım bilavasitə Heydər Əliyevin prezident olmaq üçün yolunu kəsmək məqsədi daşıyırdı”*

Ardı-Səh-5

# Siyavuş Novruzov: "Heydər Əliyevi qəsdən Naxçıvan deyil, Naftalan təyyarəsinə mindirmişdilər..."

Əvvəli-Səh-4

1993-cü ilin iyun ayına kimi, yəni, Heydər Əliyevin hakimiyyətə qayıdışına qədər artıq 36 rayonda partiya təşkilatı təsis olunmuşdu. Digər rayonlarda da olacaqdı, ancaq Xalq Cəbhəsi xalqın Heydər Əliyevə qarşı bu qədər sevgisini görüb bütün ölkədə fövqəladə vəziyyət elan etdi. Fövqəladə vəziyyət elan olunandan sonra isə artıq yerlərdə toplantıların keçirilməsi qadağan olundu. Fövqəladə vəziyyət aradan qalxandan sonra isə YAP-ın daha 51 təşkilatı təsis olundu. YAP-ın 70 rayon təşkilatı 1993-cü ildə yaranıb. Digərləri isə sonradan yeni rayonlar yaradılanda yarandı. Bu gün YAP-ın 600 min nəfər üzvü var. Azərbaycan cəmiyyətinin qaymaqları Yeni Azərbaycan partiyasında təmsil olunur.

**- Partiyanın adı necə yarandı? Niyə məhz Yeni Azərbaycan Partiyası oldu?**

- Çox maraqlı sualdır. Bunu ilk dəfə mətbuatda sizə açıqlayıram. Çünki görünür, bu barədə çox adamın məsələdən məlumatı yoxdur. Yeni Azərbaycan Partiyasının yaradılması vaxtı ortaya belə bir sual çıxdı ki, bu partiyanın adı nə olsun. Müxtəlif fikirlər və adlar təklif olundu. Ancaq "Doğru Yol Partiyası" adı üzərində dayanıldı. Çünki həmin vaxtı Süleyman Dəmirəl Naxçıvanda "Ümid körpüsü"nün açılış mərasiminə qatılmışdı. Bilirsiniz ki, Süleyman Dəmirəl Heydər Əliyev ilə də yaxın dost idi. Buna görə də, o vaxt razılıq var idi ki, yeni partiyanın adı "Doğru Yol Partiyası" olsun. Belə düşünülürdü ki, Doğru Yol Partiyasının Türkiyədə rəhbəri Süleyman Dəmirəldir. Azərbaycanda da bu adda partiyanın rəhbəri Heydər Əliyev olsun və sairə. Hətta, buna hazırlıq işlərinə də başlanılmışdı. Ancaq həmin ərəfədə Tamerlan Qarayev elan etdi ki, mən Doğru Yol Partiyası yaratdım. Bu səbəbdən də "Doğru Yol Partiyası" adından imtina edildi. Sonra fikir mübadiləsi aparıldı və rəhmətlik Sirus Təbrizli təklif etdi ki, partiyanın adı Yeni Azərbaycan Partiyası olsun. O vaxtı rəhmətlik Murtuz Ələsgərov da hüquqşünaslardan ibarət qrup təşkil etmişdi və partiyanın Nizamnaməsini yazıb Heydər Əliyevə aparmışdı. Ancaq Ulu öndər həmin Nizamnaməni qarşısına qoyub baxandan sonra hamısının üzərindən xətt çəkdi. Daha sonra isə partiyanın Nizamanməsini yenidən özü yazdı. Bu gün də həmin Nizamnamədə bir nöqtə belə dəyişməyib. Ulu öndər 22 il öncə uzaqgörən siyasəti ilə necə yazıbsa, bu gün də elə qalır. Yəni, Ulu öndər Heydər Əliyev bir saat, bir gün deyil, on illərlə gələcəyi görürdü. Vaxtilə Ulu öndərə partiyanın adının Yeni Azərbaycan Partiyası olması barədə təklif veriləndə, Heydər Əliyev bunu onun üçün əsaslandırmağı istədi. Nə üçün Yeni Azərbaycan Partiyası? Deyiləndə ki, artıq müstəqil Azərbaycanın yeni erası və dövrü başlayır və partiya da Yeni Azərbaycan Partiyası olsun, buna hamı razı oldu. Ulu öndər də partiyanın adının Yeni Azərbaycan Partiyası olmasına razılıq verdi.

**- O dövrdə iqtidarda olan hakimiyyət nümayəndələri tərəfindən sizə təzyiqlər çox olurdu?**

- Təzyiqlər var idi, özü də çox idi. O vaxt yaş senzi ilə bağlı mitinqlərə başlanılanda, mən və Ziyafət Əsgərov bir yerdə Azərbaycan Milli Elmlər Akademiyasının "Aspirantlar yataqxanasında" yaşayırdıq. O vaxt mitinqlərdə plakat, şüarlar və digər ləvazimatları gəzdirən şəxslərin hamısı izlənilirdi. Ona görə də mitinqdə istifadə olunan plakatları heç kəs öz evinə apara bilmirdi. Hətta, o vaxtı biz 3 dəfə avtobus, 2 dəfə metro dəyişirdik ki, harada yaşadığımız bilinməsin. Bizə qarşı hücumlar və təzyiqlər olurdu. Təsəvvür edin ki, 18 gün dalbadal mitinqin plakatları hər gün aparılıb-gətirilirdi və mənim otağımda saxlanılırdı. O vaxt Ayaz Mütəllibovun avtomatlı dəstəsi bir neçə dəfə gəlib otağımızı və plakatları dağıtdılar, bizə də hücum çəkdilər. Həmin silahlı dəstənin üzvləri Bakının ayrı-ayrı kəndlərindən yığılmışdı. Həmin dəstə silah çəkib mitinqi də dağıdırdı. Hətta, atışma da olmuşdu. Ancaq Heydər Əliyev hər dəfə bizə deyirdi ki, heç bir halda qarşıdurmaya və qan tökülməsinə getməyin. Sonrakı hadisələrdə də, "OMON" və oktyabr hadisələrində də hamı gördü ki, Heydər Əliyev məsələləri ancaq sözün və siyasətin gücü ilə həll edir. AXC-Müsavat hakimiyyəti dövründə də partiyamızın fəalları izlənilirdi. Hətta, rəhmətlik Murtuz Ələsgərovun əl-ayağını sındırmışdılar. O vaxt Yeni Azərbaycan Partiyasının qərargahına da silahlı basın edilmişdi. Bu zaman mən və Abdin Fərzəliyev də ciddi xəsarət aldıq. Ayrı-ayrı partiya funksionerlərinə qarşı telefon zəngləri və hədələri var idi. Bu cür hadisələr regionlarda da baş verirdi. Partiya tərəfdarlarına qarşı ciddi təzyiqlər var idi.

O zaman İlham Əliyev Moskvadan Bakıya qayıtmışdı. Ancaq bütün yolları bağlamışdılar ki, İlham Əliyev Naxçıvana gedə bilməsin. Mən də İlham Əliyevi müşaiyət edirdim. Hava limanına gedən yolda ən azı 10 yerdə postlar qurulmuşdu ki, bizi saxlayıb həbs etsinlər. O vaxtkı hakimiyyət o qədər ədalətsiz idi ki, hətta övladın atası ilə görüşməsinə belə qadağa qoyurdu. Bir dəfə də Ulu öndər Heydər Əliyev Bakıda Ali Sovetin iclasından çıxandan sonra, onu qəsdən Naxçıvana deyil, Naftalana gedən yük təyyarəsinə oturtmuşdular. O, bir neçə saat həmin təyyarədə qalmışdı. Yəni, bu cür insanlığa zidd və ədalətsizlik var idi.

> *"Sovet İttifaqı dövründə Heydər Əliyevin yetişdirdiyi kadrlar var idi. Həmin adamlar Heydər Əliyev tərəfindən ayrı-ayrı dövlət vəzifələrinə də irəli çəkilmişdi. "91-lər"ə imza atılan zaman onlara da müraciət olundu. Ancaq onların böyük əksəriyyəti buna imza atmaqdan imtina etdi. "*

# Güclü və nüfuzlu siyasi qüvvə

*Nərimanov rayon icra hakimiyyəti YAP Nərimanov rayon təşkilatının birgə təşkilatçılığı əsasında Yeni Azərbaycan Partiyasının 22-ci ildönümünə həsr olunmuş tədbir keçirib*

Dünən Nərimanov rayon icra hakimiyyətinin və YAP Nərimanov rayon təşkilatının birgə təşkilatçılığı ilə partiyanın yaradılmasının 22-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Yeni Azərbaycan Partiyasının rayon təşkilatının fəalları, rayon icra hakimiyyətinin rəhbərliyi, rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, kütləvi informasiya vasitələrinin nümayəndələri və fəal gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev partiyanın yaranma zərurətindən, keçdiyi inkişaf yolundan danışıb. Bildirib ki, Yeni Azərbaycan Partiyası və onun qurucusu Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda - son dərəcə mürəkkəb, ağır bir dövrdə xalqın təkidli tələbi ilə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürməsəydi, bugünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən, regionun lider dövlətinə çevrilən Azərbaycandan danışmaq mümkün olmazdı: "Olduqca çətin bir şəraitdə yaranmış bu partiyanın çox qısa bir müddətdə əsl siyasi qüvvə kimi formalaşması, minlərlə əqidəli insanın onun sıralarında birləşməsi bu gün bir daha Heydər Əliyev fenomeninin, dühasının qüdrətindən xəbər verir".

Nərimanov rayon icra hakimiyyəti başçısının birinci müavini Şahmar İbadov bildirib ki, Ulu Öndərimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası xalqımızın və ölkəmizin həyatını kökündən dəyişdirib, ölkəmizin həyatında yeni mərhələnin əsasını qoyub, yarandığı vaxtdan partiyamız siyasi mübarizələrlə dolu şərəfli bir yol keçib. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasətin avanqard qüvvəsi kimi, xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə layiqli töhfəsini verir: "Bu əməli fəaliyyət bundan sonra da davam edəcək, partiyamız Ulu Öndərimiz, Azərbaycan xalqının əbədi lideri Heydər Əliyevin əməllərini yaşadacaq, Heydər Əliyev siyasi məktəbinin, Onun yolunun və ideyalarının davamçısı olacaq".





Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun icraçı direktoru, YAP Nərimanov rayon təşkilatının sədr müavini Vüqar Səfərli isə çıxışında partiyanın yaranma tarixindən danışıb. YAP-ın yaranmasını şərtləndirən o dövrün mühüm ictimai-siyasi mənzərəsini təhlil edən V.Səfərli deyib ki, YAP 1988-ci ildən başlanan iqtisadi, siyasi, xüsusilə dövlət hakimiyyəti böhranı ölkəmizdə vəziyyəti daha da gərginləşdirmişdi. Məhz belə bir ərəfədə xalqın sağlam qüvvələri, həmçinin, 91 ziyalı "Səs" qəzetində böyük tarixi şəxsiyyət Heydər Əliyevə müraciət etdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis edildi: "Xalqın arzularının təcəssümü, yekdil iradəsinin ifadəsi kimi tarixi reallıqdan irəli gələrək, vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində yaranan Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi həyatına yeni nəfəs verməklə, qurtuluş və tərəqqinin, inkişafın simvoluna çevrilib. İnanırıq ki, Yeni Azərbaycan Partiyası bundan sonra da Azərbaycanın siyasi həyatında öz mütərəqqi missiyasına sadiq qalaraq, dövlətimizin və xalqımızın inkişafı naminə vəzifələrini şərəflə yerinə yetirəcək".

"91-lər" hərəkatının üzvü Heydər Hüseynov çıxışında bildirib ki, o zaman YAP müxalifət partiyası kimi yaranmışdı. Lakin YAP xalqa qarşı müxalifətdə deyildi, xalqın mənafeyinə uyğun şəkildə addımlar atırdı: "YAP xalqın sevdiyi, etimad göstərdiyi partiyadır. Ona görə də, yarandığı qısa müddətdən sonra partiyamız hakimiyyətə gəldi. Xalqın təkidli tələbi ilə Bakıya qayıdan Ulu Öndər xalqımızı vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. Əlbəttə ki, bu gün Ulu Öndərin əsasını qoyduğu siyasi kurs möhtərəm Prezidentimiz, partiyamızın Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir və YAP Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqına və dövlətinə xidmət edir. Prezidentimizin siyasəti nəticəsində ölkəmizin bütün guşələri, o cümlədən ucqar dağ rayonları da gözəlləşir, inkişaf edir". YAP Nərimanov rayon təşkilatı qadınlar şurasının sədri Məhəbbət İbrahimova isə YAP-ın yaranmasının tarixi hadisə olduğunu bildirib. Partiyanın Ulu Öndər Heydər Əliyevin nurlu zəkasının bəhrəsi olduğunu deyən M.İbrahimovanın sözlərinə görə, YAP-ın yaranmasında ölkəmizin görkəmli ziyalıları da yaxından iştirak ediblər. YAP-ın 22 il ərzində inkişaf etdiyini deyən qadınlar şurasının sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə partiyanın böyük uğurlar qazandığını vurğulayıb. Tədbirdə, həmçinin, rayon təşkilatının idarə heyətinin üzvü Vilayət Əliyev və təşkilatın təlimatçısı Nərminə Yunusova çıxış edərək partiyanın keçdiyi inkişaf yolundan bəhs ediblər. Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının 22-ci ildönümü münasibəti ilə bir qrup partiya fəalına fəxri fərmanlar, həmçinin, hədiyyələr təqdim olunub. Eyni zamanda YAP sıralarına yeni qoşulmuş şəxslərə partiya vəsiqələri verilib.

**RƏFİQƏ KAMALQIZI**

# Yeni Azərbaycan Partiyası - 22 ildə keçilən şərəfli yolun bariz təsdiqi



**Ağabəy Əsgərov,**
**“Azərbaycan” nəşriyyatının baş direktoru, YAP Siyasi Şurasının üzvü**

**Xalqımız Yeni Azərbaycan Partiyasının yaranmasının 22 ilini böyük fərəh, tükənməz qürur hissi ilə qeyd edir. Əslində, 22 il öncə, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan YAP öz möhtəşəm və şanlı tarixində müstəqil Azərbaycanımızın uğur simvolikası kimi də öz təcəssümünü tapmaqdadır. Çünki bu ali təcəssümdə itirilməkdə olan müstəqilliyin qorunması, xalqımızın daxili və xarici düşmənlərdən xilası, iqtisadiyyatımızın dirçəlişi, demokratiyanın bərqərar olması və bu kimi minlərlə faktorlar dayanıb.** Lakin bütün bunların təhlilini apararkən, bir tarixi həqiqəti xatırlamamaq olmur. Hələ naşı, xəyanətkar AXC-Müsavat iqtidarı zamanı Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda müxalifət partiyası kimi yaradılan Yeni Azərbaycan Partiyasına qarşı Bakıdan təhdidlər, təzyiqlər və təqiblər başlanmışdı. Məhz həmin dövrlərdə tarixə “91-lər”in müraciəti kimi daxil olan sənəddə həmin zamanların səciyyəvi xüsusiyyətləri kifayət qədər öz əksini tapmışdı. “SƏS” qəzeti vasitəsilə edilən həmin müraciətə Dahi Şəxsiyyət Heydər Əliyev tarixi cavab verərək, Azərbaycanı düşdüyü vəziyyətdən çıxarmağın yollarını, eyni zamanda, Yeni Azərbaycan Partiyasının yaradılması haqqında fikir bildirərək, izah etmişdi ki, Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğan addımdır. Məhz bu inamı ifadə etmişdi ki, belə bir partiyanın yaranması Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Budur, 22 ildə keçilən şərəfli yol bu fikirlərin bariz təsdiqidir! Ulu Öndərin **“dünənin, bu günün və gələcəyin partiyası”** deyə həm keçmişini, həm bu gününü, həm də gələcəyini müəyyən etdiyi Yeni Azərbaycan Partiyasının yarandığı gündən öz siyasi xəttinə sadiqliyi, xalq, dövlət qarşısında xidmətləri, ölkəmizin bir-birini əvəzləyən uğurlarına atdığı imzası onun cəmiyyətdəki mövqeyini daha da möhkəmləndirmiş, ümumxalq partiyası olduğunu təsdiqləmişdir.

### Azərbaycanın yeni, müasir tarixinin başlanğıc nöqtəsi

Çünki xalqımız üçün ən qiymətli nemət olan dövlət müstəqilliyinin qorunması, o cümlədən, xalqın mənafeyini qorumaq üçün həvalə olunan hakimiyyətə yalnız mənfəət prizmasından yanaşan AXC-Müsavat cütlüyü ölkəni iqtisadi tənəzzülə uğratmaqla yanaşı, siyasi cəhətdən də gərgin bir vəziyyət yaratmışdı. Ölkədə kriminogen durum gündən-günə pisləşir, cinayətkarlıq baş alıb gedirdi, qanunun tələbləri, səlahiyyətli, vəzifəli şəxslərin əmr və sərəncamları, göstərişləri icra olunmurdu. Sadəcə, hər kəs öz silahlı dəstəsinə arxayın olaraq hakimiyyət savaşı aparırdı. Ölkədə istehsal dayanmışdı, iqtisadi böhran həyatın bütün sahələrini iflic etmişdi. Digər tərəfdən, siyasi qurumlar arasında hakimiyyət uğrunda gərgin mübarizə gedirdi. Məhz belə bir ağır zamanda xalqın israrlı tələbi ilə Bakıya gələn Ulu Öndər Heydər Əliyev Ali Sovetin Sədri kimi fəaliyyətə başladığı ilk aylarda atdığı müdrik addımlar sayəsində qısa müddət ərzində vətəndaş müharibəsi və ölkəmizin parçalanmaq təhlükəsinin qarşısını aldı, hakimiyyəti qeyri-qanuni ələ keçirməyə cəhd göstərən cinayətkar qüvvələr xalqın dəstəyi ilə zərərsizləşdirildi. Ümummilli Liderimizin müdrikliyi, dünyada gedən proseslərə dərindən bələd olması, baş verən hadisələrin səbəblərinin təhlili zamanı əvəzolunmaz məharət və bacarığı, hadisələrin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görmək səriştəsi öz bəhrəsini verdi və Ulu Öndərin Bakıya gəlişindən bir neçə ay sonra ölkədə siyasi sabitlik yaradıldı. Bu isə hüquqi dövlət quruculuğu sahəsində atılması vacib olan ilk addımlardan idi. Çünki ölkənin gələcək hüquqi inkişafı məhz sabitliyə əsaslanırdı.

Digər tərəfdən, məhz YAP-ın yaranma ərəfəsində ziyalıların, tanınmış siyasi-ictimai xadimlərin, eləcə də sadə xalq nümayəndələrinin Ulu Öndərin ətrafında toplaşaraq dövlətçiliyin xilasını Onun missiyasında, Onun siyasi iradəsində - rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasında görməyə başlaması Azərbaycanın yeni, müasir tarixinin başlanğıc nöqtəsi oldu. Bu baxımdan, YAP-ın yaranması sonrakı zamanlarda dövlətin qorunması, daxili və xarici düşmənlərdən azad edilməsi istiqamətində çox mühüm siyasi rol oynadı.




### Bu gün YAP-ın sıralarında 650 mindən çox insanın üzv olması mövcud uğurları kifayət qədər təsdiq edir

Əbəs yerə deyil ki, Heydər Əliyev ziyalıların Ona müraciətinə cavabında vurğulamışdı ki, **“Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur”.** O, bu haqqından bütün qətiyyəti ilə istifadə etdi və yalnız Yeni Azərbaycan Partiyasının Sədri kimi deyil, eyni zamanda, xalqın Ümummilli Lideri kimi dövlətçiliyi, ölkəni düşdüyü bəlalardan qorumuş oldu. Əlbəttə ki, bu kimi faktorlar sonrakı illərdə YAP-ın güclənməsində, qüdrətlənməsində, Cənubi Qafqazda və beynəlxalq aləmdə ən güclü siyasi təşkilata çevrilməsində çox əhəmiyyətli rol oynadı. Bu gün YAP-ın sıralarında 650 mindən çox insanın üzv olması da bu deyilənləri kifayət qədər təsdiq edir.

Həmçinin, YAP-ın yaranması sonrakı dövrdə insan hüquq və azadlıqlarının genişləndirilməsi, demokratik dövlət quruculuğunun inkişafı istiqamətində qanun bazasının yaradılmasına əhəmiyyətli təkan verdi. Məsələn, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk Milli Konstitusiyanın qəbul olunması demokratik dəyərlərə doğru atılan ilk addımlardan biri kimi dəyərləndirilməkdədir. Konstitusiyada yer alan müstəqilliyin, suverenliyin və ərazi bütövlüyünün qorunması, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi müddəalar dövlətin xarici-daxili siyasətinin prioritetini təşkil etdi.

### Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısı kimi bu müqəddəs, mütərəqqi yolu uğurla davam etdirməkdədir

Bütövlükdə, ötən 22 il ərzində ölkəmizin inkişafında YAP-ın xüsusi yer tutması danılmaz faktdır. Bu gün ölkə rəhbərimiz, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısı kimi bu müqəddəs, mütərəqqi yolu uğurla davam etdirməkdədir. Bu gün YAP-ın uğurlu və örnəkverici fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının demokratik inkişaf yolu ilə inamla irəliləməsi üçün ölkəmizdə zəruri olan təsisatlar və hüquqi bazanın formalaşdığını vurğulaya bilərik.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev iqtisadi-siyasi sahələrdə təməli qoyulmuş işləri daha da inkişaf etdirir. Qısa müddət ərzində Azərbaycanın dövlət büdcəsi bir neçə dəfə artırılıb, ölkəmizdə ordu quruculuğu və digər sahələrdə yüksək inkişaf əldə olunub. Beləliklə, biz bir daha əminliklə belə bir nəticəyə gələ bilərik ki, Heydər Əliyev ideyaları, Heydər Əliyev siyasi məktəbi və inkişaf strategiyası bu gün də Azərbaycan xalqının inkişafının təməl prinsipi sayılır. Bu baxımdan, Yeni Azərbaycan Partiyası sonrakı illərdə və qərinələrdə də öz uğur, zəfər və qələbə sözünü deyərək, Azərbaycanımızın tərəqqisində əhəmiyyətli rolunu oynamaqda davam edəcək.

# YAP güclü lider ənənəsinə sadiq partiyadır

Artıq nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatı kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyasının yaradılmasından 22 il ötür. Birbirindən əhəmiyyətli uğurları ilə 22 ili zənginləşdirən Yeni Azərbaycan Partiyası əbəs yerə ümumxalq partiyası kimi dəyərləndirilmir. Partiyanın yarandığı vaxtdan bu günə qədər tutduğu siyasi xəttə, mövqeyə sadiqlik nümayiş etdirməsi onun gələcəyinə olan inamı günbəgün artırır. Ölkənin ictimai-siyasi həyatında aparıcı mövqeyə malik olan Yeni Azərbaycan Partiyasının hansı zərurətdən yarandığını təhlil etmək həmişə günün tələbi olaraq gündəmdədir. Məlum olduğu kimi, Azərbaycan 1991-ci ilin oktyabrın 18-də dövlət müstəqilliyini yenidən bərpa etdi. İlk illərdə ölkəyə idarəçilik qabiliyyəti olmayan, səriştəsiz, şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutan şəxslərin rəhbərlik etməsi Azərbaycanı müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qoydu. Yeni Azərbaycan Partiyasının yaradılmasını zərurətə çevirən də məhz həmin dövrün reallıqları idi. Bu gerçəkliklər ümumilikdə Azərbaycan xalqının istəyini əks etdirən 91 nəfər ziyalının ulu öndər Heydər Əliyevə ünvanladığı "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətində də öz əksini tapıb: **"Azərbaycan sözün əsl mənasında siyasi, iqtisadi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır... Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyillərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti, idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə təyin edilməsi, respublikamızın onsuz da ağır olan durumunu daha da dərinləşdirir".**



**Vüqar Rəhimzadə**
**YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar Jurnalist**

Müraciətdə həmin dövrün səciyyəvi xüsusiyyətlərindən biri kimi yeni-yeni partiyaların meydana çıxması fonunda ölkədə ictimai-siyasi həmrəyliyin yaradılması istiqamətində heç bir işin görülmədiyi xüsusilə önə çəkilərək bunun səbəbi açıqlanırdı. Bildirilirdi ki, bu siyasi partiyaların rəhbərləri arasında sözün əsl mənasında geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, öz ətrafında müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam, geniş məlumatlı olan güclü lider yoxdur. Yeni qüvvələrin lideri Heydər Əliyev kimi şəxsiyyət olarsa, tezliklə respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar. Ümummilli lider Heydər Əliyev ziyalıların müraciətinə "Yeni, müstəqil Azərbaycan uğrunda" adlı cavabında isə partiyanın gələcəyinə inamını belə ifadə etmişdir: **"Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".**

Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirildiyi 1992-ci il noyabrın 21-dən bu günə qədər qət edilən yola nəzər salsaq bu inamın reallıqlarda öz əksini tapdığının şahidi olarıq. Ümummilli lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının 2001-ci il noyabrın 21-də keçirilən II qurultayında söylədiyi "Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır. Biz partiyanı yaradarkən heç də düşünmürdük ki, qısa bir müddətdən sonra hakimiyyətə gələcəyik. Baxmayaraq ki, ölkəmizdəki vəziyyət - sizin hamınıza məlum olan vəziyyət bizim hamımızı düşündürürdü. Ona görə də, bir tərəfdən, biz hesab edirik ki, partiyanı yaradaraq xalqımıza müəyyən bir xidmət göstərə bilərik. İkinci tərəfdən də, sadəcə, ölkənin belə ağır vəziyyətində bir çox insanların ümidi, istəyi, nəhayət, bu partiyanın yaranmasına gətirib çıxardı" fikirləri də partiyanın yaranma zərurətinə aydınlıq gətirməklə yanaşı, sonrakı dövrün əsas istiqamətlərinin müəyyənləşdirilməsinə bələdçilik etdi. Azərbaycan artıq dövlət müstəqilliyinin bərpasının 23, Yeni Azərbaycan Partiyasının yaranmasının 22 ilini arxada qoyur. Təbii ki, bu gün uğurlarımızın miqyası 10 il bundan öncəkindən daha geniş və möhtəşəmdir. 1993-2003-cü illər Azərbaycan tarixinə sabitlik və inkişaf illəri kimi yazılıb. Dahi şəxsiyyət Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dünyaya günəş kimi doğdu. Müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdığı dövrdə böyük inamla səsləndirdiyi bu fikirlər tezliklə reallıqda təsdiqini tapdı: "Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir". Müstəqil Azərbaycanın keçdiyi inkişaf yolunun bələdçisi olan Yeni Azərbaycan Partiyası dövlətə, xalqa xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul edərək, atdığı addımları ilə cəmiyyətdə nüfuzunu daha da artırır, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir. 1992-ci il noyabrın 21-də Azərbaycanın əksər bölgələrindən cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə təsis konfransını keçirən partiyanın bu gün sıralarında 640 minə yaxın üzvün birləşməsi Heydər Əliyev ideyalarına sədaqətin, bu xətti uğurla davam etdirən möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin siyasətinə inamın göstəricisidir. Dövlətimizin başçısı İlham Əliyev YAP Xaçmaz rayon təşkilatının fəalları ilə görüşündə deyib: "Bu gün və gələcəkdə bizimlə rəqabət aparmaq iqtidarında olan qüvvə yoxdur. Amma bu o demək deyil ki, biz arxayınlaşaq və fəaliyyətimizi bir az zəiflədək. Əksinə, bizim fəaliyyətimiz siyasi mübarizədən daha çox Azərbaycanın inkişafına yönəlibdir. Biz siyasi mübarizə məsələlərini çoxdan həll etmişik. Bu baxımdan mən gələcəkdə heç bir problem görmürəm. Bizim fəaliyyətimiz, fəal olmağımız, bütövlükdə, Azərbaycanın inkişafına yönəlibdir... Yeni Azərbaycan Partiyasının üzvü olmaq böyük məsuliyyətdir. Əlbəttə, insanlar daha da tələbkar olmalıdır, daha da səmərəli işləməli və bu yüksək adı çox şərəflə daşımalıdırlar".

Partiyanın keçdiyi 22 illik şərəfli yol xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını, sarsılmaz və əbədi olduğunu təsdiqləyir. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən İlham Əliyev Azərbaycanın daha da qüdrətli, güclü dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bəyan etmişdir. 2003-2008-ci illər ərzində görülən işlər, əldə olunan uğurlar dövlətimizin başçısı İlham Əliyevin 2008-ci il prezident seçkilərində, 2008-2013-cü illərdə gördüyü işlər isə 2013-cü il prezident seçkilərində qələbəsini şərtləndirdi. Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rola malik olan Yeni Azərbaycan Partiyasının 22 illik tarixi yolda əldə etdiyi uğurlara qısa baxış ulu öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" fikrinin böyük əsaslara söykəndiyini təsdiqləyir. Uğurlarımızın ümumiləşdirilmiş ifadəsi olaraq deyə bilərik ki, Heydər Əliyev siyasəti Azərbaycanın qarşısında yeni-yeni imkanlar açır, hədəflər müəyyənləşdirir. Partiyanın hər bir üzvü Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək bu hədəflərə çatmaq üçün öz töhfəsini verir.

# Xədicə İsmayıl Qərbin agentidir

*Elşən Musayev: "Konqresmenlər Xədicənin deyil, Qərbin və erməni lobbisinin bu "işbaz" qadına xərclədikləri pulun hayındadırlar"*

**- Elşən müəllim, prokrorluq Xədicə İsmayıl haqqında məhkəmə prosesi getdiyi üçün ölkə hüdudlarından kənara çıxmaması barədə qərar verib. Bununla bağlı "Azadlıq" Radiosunun və ABŞ Dövlət Departamentinin böyük hay-küy qaldırması nədən irəli gəlir?**

- Xədicə İsmayıl həmin haqqında danışdığınız ABŞ-ın, bir az da dəqiq desək, bəzi Qərb dairələrinin muzdlu agentidir. Eyni zamanda "5-ci kolon" dediyimiz antimilli qruplaşmanın öncül üzvlərindəndir. Belə olan halda isə istənilən hay-küyün müşahidə olunması, düşünürəm ki, tam normal qəbul olunmalıdır. Yəni xarici ölkə himayədarları öz agentlərinə, öz buyruq qullarının ciblərindən maliyyələşdirdikləri şəxslərə dəstək verirlər. Burada anormal olan nə var ki? Sadəcə mövzunun kuryoz və anlaşılmayan tərəfi bilirsinizmi nədir?

Hələ ortalıqda bir şey yoxdur, Xədicə İsmayıl azadlıqdadır. Hüquq-mühafizə orqanları isə üzərlərinə düşən vəzifəni icra edərək, bəlli ifadələrdə adları çəkilən insanların məlum cinayət işində bu və ya digər şəkildə iştirakını yoxlayır, araşdırır, dəqiqləşdirir. Bu xüsusda



*Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayevdir*

X.İsmayıl da istisna deyil. Amma bu adam, eyni zamanda "ələkçinin qılvərəni" rolunda çıxış edən bəzi dairələr, konkret olaraq ABŞ Dövlət Departamenti özlərinə elə əl qatıblar ki, sanki burada söhbət hansısa ciddi bir fiqurun təqibindən, ya da günahsız yerə suçlanmasından gedir. Bu əməlin məğzi isə hər kəsə aydındır.

Təfsilata ehtiyac yoxdur. X.İsmayıl bütün fəaliyyətini və resurslarını Azərbaycan əleyhinə yönəldib. O, bu çirkin işini açıq-açığına yerinə yetirir. Yox, əgər Departament də daxil olmaqla hansısa qurum və ya beynəlxalq təsisatların əməkdaşları düşünürlərsə ki, Azərbaycan dövləti, bu dövlətin hüquq-mühafizə orqanları bənzər məsələlərə qarşı biganəlik nümayiş etdirəcək, o zaman xəbərləri olsun ki, kökündən yanılırlar. Hər şey, yəni bütün prosedurlara qanun çərçivəsində əməl ediləcəkdir. Hər kəs də bu qanunlar qarşısında məsuliyyət daşıyır. Eyni zamanda Xədicə İsmayıl.

**- Sizcə, nəyə görə ABŞ Dövlət Departamenti və ayrı-ayrı konqresmenlər Xədicə İsmayıla bu dərəcədə önəm verirlər?**

- Bir daha təkrar edirəm: Xədicə bunların özlərindəndir, öz qanlarından, öz canlarındandır. Xədicənin mənşəyi, mənbəyi bəlli olmayan qurumlara, şəxslərə bağlılığı Azərbaycana bağlılığından min qat artıqdır. Bu da onun hər addımı ilə təsdiq olunur. Konqresmenlər Xədicənin deyil, Qərb və erməni lobbisinin bu "işbaz" qadına xərclədikləri pulun hayındadırlar. Çünki maya batır, "5-ci kolon" fəaliyyətsizdir. Üstəgəl, Xədicə onlara verdiyi vədlərə və sözlərə bəlli səbəblərdən əməl edə bilməyib. Onun həbsi isə bir çox "layihə"ləri batıra bilər. Odur ki, Xədicə "demokratiya", "insan hüquqları" adı altında müdafiə olunmalı, azadlıqda qalmalı və üzərinə götürdüyü missiyanı, yəni anti-Azərbaycan fəaliyyətini bundan sonra da var gücü ilə davam etdirməlidir. Məqsəd və məram budur.

**- Ümumiyyətlə, son vaxtlar xarici maraqlı qüvvələrin Azərbaycanda bir sıra təmsilçilərini himayə etmək prosesləri daha da sürətlənir. Yəqin ki, onların narahat olduqları məqamlar var.**

- Xarici qüvvə, ələlxüsus da X.İsmayıl öz fəaliyyətini separat yollarla, iyrənc üsullarla tənzimləyirsə, əsla öz maraqlarından savayı məqsəd güdə bilməz. Onlar dünyanın siyasi rəngini dəyişmək üçün əllərindən gələni əsirgəməyiblər. Təbii ki, neqativ anlamda. Vasitəçilər isə Xədicə kimi zombilər, kamikadzelər, agentlərdir. Bütün qara işlər, bütün inqilab hazırlıqları, bütün araqarışdırma, böhran yaratma prosedurları onların vasitəsilə mərhələ-mərhələ həyata keçirilir. Həm də dünyanın müxtəlif bölgələrində. Sadəcə fərq ondan ibarətdir ki, rəhbəri yerində olan, xalqın dəstəyi ilə formalaşan, sabit siyasi sistemə malik olan dövlətlər bu cür düşmən tələsindən, təqibindən bir şəkildə sığortalana bilirlər. Azərbaycan da həmin kontekstdədir. O mənada ki, bu gün kimsə bizə təsir və ya diktə edə bilməz. Hətta dünyanın ən güclü strukturları belə. Nə Xədicə məsələsində, nə də qeyri məsələlərdə.

**GÜLYANƏ**

## Təhsil Nazirliyi yeni layihənin həyata keçirilməsinə başlayıb

Təhsil Nazirliyi şagirdlərdə mütaliə mədəniyyətinin yüksəldilməsi məqsədilə yeni layihənin həyata keçirilməsinə başlayıb. Təhsil Nazirliyindən AzərTAc-a bildiriblər ki, layihənin əsas qayəsi təhsil müəssisələrinin nəzdində mütaliə edən icmanın yaradılması vasitəsilə şagirdlərdə oxuya marağın artırılması, məktəblilərin bədii ədəbiyyat, sənədli əsər və digər mətn növləri ilə tanış olması üçün şəraitin yaradılmasından ibarətdir. Layihə çərçivəsində şagirdlər və müəllimlər arasında oxunan ədəbiyyatın, müxtəlif mətn növlərinin müzakirə yolu ilə dəyərləndirilməsi, mübadiləsi, şagirdlərdə səmərəli oxu vərdişlərinin yaradılması nəzərdə tutulur. Həmçinin, şagirdlərdə müasir İKT vasitələrindən istifadə etməklə səmərəli axtarış və dəyərli paylaşma mədəniyyətinin formalaşdırılması və təbliğinə nail olunması layihənin əsas hədəfləri sırasındadır. Layihədə təhsil müəssisələrinin I-XI sinif şagirdləri, müəllimlər və valideynlərin, ictimaiyyət nümayəndələrinin iştirakı nəzərdə tutulub.

# YAP sosial sifariş əsasında yaranmış siyasi partiyadır

Müasir Azərbaycanın milli siyasi məkanında fəaliyyəti və təsir dairəsi, beynəlxalq nüfuzu ilə fərqlənən, müasir siyasi sistemin formalaşmasında müstəsna rolu olan, demokratikləşmə prosesinə töhfəsini verən yeganə siyasi partiya bu gün yaradılmasının 22-ci ildönümünü qeyd edən Yeni Azərbaycan Partiyasıdır. Təkzibedilməz faktdır ki, hazırda YAP kəmiyyət və keyfiyyət göstəricilərinə görə, nəinki ölkəmizin, hətta regionun siyasi palitrasının ən aparıcı partiyası kimi siyasi-ictimai və sosial proseslərdə sözünü qətiyyətlə deyə bilən avanqard siyasi qüvvədir. Digər tərəfdən, beynəlxalq siyasi partiyalar təşkilatlarının mühüm önəm kəsb edən üzvü kimi qlobal tendensiyalara təsir etmək iqtidarında olan Yeni Azərbaycan Partiyası təşəbbüs və təklifləri ilə də diqqət çəkməkdədir.

Bir sözlə, Yeni Azərbaycan Partiyası müasir siyasi partiya kriteriyalarına sahib olan, 22 il ərzində şərəfli inkişaf yolu keçən və fəaliyyətilə Azərbaycanın həm daxili, həm də xarici həyatında əhəmiyyətli rol oynayan, ətrafında 630 mindən artıq insanı birləşdirən siyasi güċdür. Eyni zamanda, YAP Azərbaycan cəmiyyətinin həm siyasi, həm iqtisadi, həm sosial, həm də mədəni həyatında uğurlu layihələrilə, həmçinin, Prezident İlham Əliyevin sosial-iqtisadi, siyasi və digər istiqamətli işlərində sosiumun səfərbər edilməsində əhəmiyyətli rol oynayır. Bu mənada, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında həlledici rol oynayır və 21 ildir ki, iqtidarda olan partiya qərarları, fəaliyyəti ölkəmizin uğurlu inkişafına güclü təsir göstərir.






Bəhruz Quliyev,
"Səs" qəzetinin
baş redaktoru

Qeyd edək ki, ötən əsrin 90-cı illərinin əvvəllərində xalqımız tamamilə yeni situasiya ilə üz-üzə qalmışdı. Daha doğrusu, keçmiş SSRİ-nin süqut etməsi nəticəsində müttəfiq respublikalar kimi Azərbaycan da, özünün dövlət müstəqilliyinə qovuşmuş və beləliklə, xalqımız müstəqilliyini bərpa etmək imkanı qazanmışdı. Amma 1990-cı illərin məlum hadisələri, həmçinin, ortaya çıxan situasiyanın yetərincə dəyərləndirilməməsi nəticəsində Azərbaycanın müstəqil dövlətçilik ənənəsinin bərpa edilməsi və möhkəmləndirilməsi istiqamətində addımların atılması mümkün olmamışdı.

Bəhs edilən dövrdə keçmiş imperiyanın süqutu nəticəsində yeni siyasi münasibətlər ortaya çıxmışdı. Belə ki, sovetlərin mövcud olduğu illərdə formalaşmış təkpartiyalı sistem tədricən öz yerini demokratiyanın əsas amillərindən sayılan çoxpartiyalı sistemə verməyə başlamışdı. Lakin həmin vaxt siyasi səhnənin hər iki qütbünü təmsil edən qüvvələr yeni dövrün tələblərinə cavab vermək iqtidarında olmamışdı.

Eyni zamanda, yaranmış tarixi şəraitdə milli dövlət quruculuğunun üzləşdiyi spesifik xüsusiyyətlər və tarixi şərtlər ortaya bir sıra nüansları çıxarmışdı. Yəni Azərbaycanın milli və dövlət müstəqilliyinin başının üstünü almış təhlükədən xilas etmək, Azərbaycanda milli dövlət quruculuğu istiqamətində səmərəli və sistemli şəkildə addımlar atmaq, layihələr həyata keçirmək, bu yöndə müvafiq siyasət reallaşdırmaq, ölkəmizin iqtisadiyyatını və həyatın digər sahələrini möhkəmləndirmək zəminində dövlətçilik ənənələrini formalaşdırıb inkişaf etdirmək üçün güclü liderə və həmin liderin rəhbərlik etdiyi güclü siyasi təşkilata ehtiyac vardı. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edilmiş və Ulu Öndərimiz Heydər Əliyev partiyanın Sədri seçilmişdi.

YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da ağırlaşmasından irəli gələn zəruri tarixi hadisə olmuşdu. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanların əzm və iradəsini qıra bilməmişdi. Çünki bütün uzaqgörən insanlar Heydər Əliyevin rəhbəri olduğu bu qurumun xilaskar bir missiya üçün yarandığını duyur və Yeni Azərbaycan Partiyasına dəstəklərini əsirgəmirdilər.

Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Yeni Azərbaycan Partiyasının inkişafı tarixində də yeni bir mərhələnin əsasını qoymuş oldu. Partiya və onun yüz minlərlə üzvü dövlət əhəmiyyətli məsələlərin həlli istiqamətində öz gücünü səfərbər etmişdi. Yeni Azərbaycan Partiyasının sənədlərində öz əksini tapmış dövlətçilik ideologiyası - Azərbaycan dövlətçiliyinin təməl prinsiplərini özündə əks etdirən azərbaycançılıq ideologiyasının cəmiyyətə təqdimatı və Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu bu ideoloji konsepsiyanın uğurla həyata keçirilməsi də Yeni Azərbaycan Partiyasının öz tarixi inkişaf yolunda Azərbaycan xalqına, dövlətinə bəxş etdiyi ən qiymətli töhfələrdəndir. Ötən müddət ərzində bu partiyanın da yaxından iştirakı ilə həyata keçirilən bütün tədbirlər, görülən işlər Azərbaycanın milli maraqlarına tam cavab verib, ölkəmizin müstəqilliyinə, milli təhlükəsizliyinə, Azərbaycan vətəndaşlarının maddi-rifah halının gündən-günə daha da yaxşılaşmasına, respublikamızın tərəqqisinə xidmət edib.

Eyni zamanda, Yeni Azərbaycan Partiyası həm də Azərbaycanda siyasi sistemin yaranmasında böyük rol oynayıb. Bu baxımdan, YAP-ın siyasi sistemdəki mövqeyini və fəaliyyətinin əsaslarını təhlil obyektinə çevirdikdə, məlum olur ki, sözügedən siyasi institut təmsil etdiyi qrupların ali mənafeyini və dövlətçilik maraqlarını özünün Nizamnaməsində əks etdirən, həmçinin, bunları praktik müstəvidə yüksək səviyyədə reallaşdıran ümummilli partiyadır.

Söz yox ki, xalqın yüksək inamı, etimadı

# YAP sosial sifariş əsasında yaranmış siyasi partiyadır



və dəstəyi ilə 21 ildir ki, hakimiyyətdə olan Yeni Azərbaycan Partiyası daşıdığı dəyərlərə və səmərəli fəaliyyət mexanizminə görə vətəndaşların siyasi iştirakçılıq və sosiallaşma səviyyəsini artıran, siyasi subyektlərarası inteqrasiya prosesinə xüsusi təkan və töhfə verən, müsbət və sağlam ictimai rəyin formalaşmasında mühüm rol oynayan aparıcı, avanqard sosial-siyasi təsisatdır. YAP-ın V Qurultayında çıxış edən Prezident İlham Əliyevin vurğuladığı kimi, Yeni Azərbaycan Partiyası sözün əsl mənasında xalq partiyasıdır: **"Xalqımızın bütün təbəqələri, bütün yaş qrupları partiyamızda birləşir və ölkəmizin uğurlu inkişafı üçün öz fəaliyyətini göstərirlər. ... Partiyamıza böyük axın vardır. ... Bu, özlüyündə bir göstəricidir. Onu göstərir ki, partiyanın məramı, ideyaları, çox cəlbedicidir. Xüsusilə, gənclərin partiyaya üzv olması çox sevindirici haldır və onu göstərir ki, partiyanın fəaliyyəti də, ideyaları da, cəmiyyətdəki rolu da vətəndaşlar üçün çox cəlbedicidir və partiyanın fəaliyyəti çox böyük dəstəyə malikdir".**

Xatırladaq ki, hələ 1999-cu ildə keçirilən qurultayda Cənab İlham Əliyev partiyanın rəhbər strukturuna seçilməsi keyfiyyətcə yeni inkişaf mərhələnin başlanmasına təkan vermişdi. 1999-cu ildən sonra Yeni Azərbaycan Partiyası dünyanın bir sıra ölkələrinin siyasi təşkilatları ilə ikitərəfli əlaqələr qurdu, beynəlxalq təşkilatlarda təmsilçilik hüququ qazandı. Buna isə yeni dövrün yeni lideri olan Prezident İlham Əliyevin xüsusi xidmətləri sayəsində nail olundu. Bu amil həm də Yeni Azərbaycan Partiyasına gənclərin marağına və axınına səbəb olmuşdu. Məhz gənc kadrlara verilən yüksək qiymət, yeni mərhələdə gənclərə etimad məsələsi Yeni Azərbaycan Partiyasının üzvlərinin arasında gənclərin sırasını daha da genişləndirdi. Bu isə yenicə müstəqillik əldə etmiş, gənc Azərbaycan Respublikasının gələcək inkişafında mühüm bir addım sayıla bilərdi.

Partiyanın 2005-ci ilin mart ayında keçirilən III Qurultayında isə Azərbaycan Prezidenti, YAP Sədrinin birinci müavini Cənab İlham Əliyevin partiyanın Sədri seçilməsi partiyanın həyatında II yeni mərhələnin başlanmasına səbəb oldu. Bu dönəmdən başlayaraq Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin edilməsi, ölkənin tərəqqisi, iqtisadiyyatın yüksəlişi, xalqın rifahının yaxşılaşması, uğurlu neft strategiyasının həyata keçirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, ölkənin təhlükəsizliyini təmin etmək iqtidarında olan ordunun yaradılması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi naminə ardıcıl siyasət həyata keçirildi. Heç kəsə sirr deyil ki, bütün bu proseslərdə YAP daim ön sıralarda dayanıb.

Müxtəlif ölkələrin siyasi partiyaları və demokratik təsisatları ilə qurduğu işgüzar və səmimi münasibətlər də ardıcıl olaraq inkişaf edir. YAP-ın beynəlxalq əlaqələrində dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın bir sıra aparıcı siyasi partiyaları və qurumları ilə münasibətləri prioritet istiqamət kimi əsas götürülüb. Yeni Azərbaycan Partiyası Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstan, Kanada, Hindistan, Çin, Cənubi Koreya, Pakistan, Tacikistan və digər ölkələrin aparıcı siyasi partiyaları ilə uzun müddətdir sıx və qarşılıqlı münasibətlərə malikdir, partiyalar arasında intensiv görüşlər keçirilir, fikir və təcrübə mübadilələri aparılır. YAP 51 ölkənin siyasi partiyalarının təmsil olunduğu "Asiya siyasi partiyaları Beynəlxalq Konfransı" (İCAPP) Daimi Komitəsinin üzvüdür. YAP bu kimi nüfuzlu beynəlxalq qurumda təmsil olunmaqla Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm tribuna əldə edib.

YAP-ın, eyni zamanda, Avroatlantik məkanda baş verən siyasi proseslərə təsir imkanları da genişlənib. Bu mənada, Almaniyanın, Fransanın, İtaliyanın, İspaniyanın və digər ölkələrin hakimiyyətdə olan sağ partiyalarını özündə birləşdirən və Avropa Parlamentində çoxluğa sahib olan Avropa Xalqları Partiyası (EPP) ilə münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Bir sözlə, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin coğrafiyası getdikcə genişlənir. Bu əlaqələr, eyni zamanda, müstəqil Azərbaycan Respublikasının siyasi partiyalar səviyyəsində beynəlxalq təşkilatlarda təmsilçiliyinin yüksək nümunəsidir. Bütün bunlar o deməkdir ki, YAP Azərbaycan dövlətini və xalqını beynəlxalq aləmdə də uğurla təmsil və təbliğ edir.

Azərbaycan dövlətinin inkişaf tarixi YAP-ın yaranma tarixi ilə eyni olduğundan bu gün hər bir azərbaycanlı partiyanın dövlət və xalq üçün həyata keçirdiyi tədbirlərin şahidi olur. Milli vətənpərvərlikdən, dövlətçilikdən, demokratiyadan dəm vuran indiki müxalifət partiyalarının xalqa xəyanətini görən cəmiyyətimiz 1993-cü ildən başlayaraq, inkişaf ideyasını əsas fəaliyyət platformasına çevirmiş Yeni Azərbaycan Partiyasına dəstək olur, onu hakim partiya kimi görməkdə davam edir. Keçirilmiş seçkilərdə, referendumlarda, sorğularda sosium dövlətin perspektiv inkişafı ilə bağlı yalnız YAP-a və Onun Sədri, Prezident İlham Əliyevə inandığını ifadə edir. Son prezident, bələdiyyə, parlament seçkilərində və referendumda da Yeni Azərbaycan Partiyasının qələbə qazanması üçün səfərbər olunan cəmiyyətimiz, eyni zamanda, YAP-ın dövlətçilik və inkişaf ideyasının daşıyıcıları, tərəfdarları olduqlarını isbatlayıblar.

Əsas ideoloji dayaqları müstəqillik, azərbaycançılıq, müasirlik, inkişaf, sosial rifah, iqtisadi və siyasi islahatlar olan Yeni Azərbaycan Partiyasına inam, etimad və dəstək böyükdür. Məhz hər bir azərbaycanlı Azərbaycanı irəliyə yalnız Yeni Azərbaycan Partiyasının və Onun Lideri Prezident İlham Əliyevin apara biləcəyinə inanır və bu mənada YAP cəmiyyətimizin yeganə seçimidir.



# Samuxda Yeni Azərbaycan Partiyasının yaradılmasının 22-ci ildönümü təntənə ilə qeyd olunub

***Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 22-ci ildönümü münasibəti ilə YAP Samux rayon təşkilatının akt zalında tədbir keçirilib. Tədbirdə YAP rayon təşkilatının idarə heyəti və şura üzvləri, ərazi ilk partiya təşkilatlarının sədrləri, partiya fəalları və ictimaiyyətin nümayəndələri iştirak ediblər. İlk öncə iştirakçılar Ulu Öndərimizin Heydər Parkında ucaldılmış abidəsini ziyarət edərək, onun qarşısına gül-çiçək dəstələri düzüblər.***

Tədbir Yeni Azərbaycan Partiyasının yaradılmasına həsr edilmiş filmin nümayişi ilə başlayıb. Filmin nümayişindən sonra tədbiri giriş sözü ilə açan Samux rayon icra hakimiyyətinin başçısı Alı Qocayev Yeni Azərbaycan Partiyasının 22 ildə keçdiyi şərəfli yoldan ətraflı bəhs edib. O, qeyd edib ki, Yeni Azərbaycan Partiyasının təsis olunması ölkə tarixinin mühüm səhifələrindən biridir. Natiq Yeni Azərbaycan Partiyasının yaranmasında Ulu Öndərimiz Heydər Əliyevin tarixi rolundan bəhs edərək bildirib ki, bu gün Onun siyasi xəttini layiqli davamçısı, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev uğurla davam erdirir.

Daha sonra çıxış edən YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov YAP-ın yarandığı zərurətdən, tarixi şəraitdən, keçdiyi şərəfli yolundan, onun yaradıcısı, Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından, partiyanın cəmiyyətdəki rolundan, rayon təşkilatının fəaliyyətindən ətraflı bəhs edərək,qeyd edib ki, Yeni Azərbaycan Partiyasının əldə etdiyi uğurlar və qazandığı nailiyyətlər bu partiyanın tərkib hissəsindən biri olan Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında da öz əksini tapıb: “Belə ki, hər şeydən əvvəl Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında say tərkibinin artımı yönündə müsbət irəliləyişlər əldə edilib. 1993-cü ildə rayon təşkilatı cəmi 3 ilk ərazi partiya təşkilatı, 30 nəfər partiya üzvünü birləşdirdisə, indi hal-hazırda 74 ilk partiya təşkilatı öz ətrafında 5019 partiya üzvünü birləşdirir. Onlardan 1368 nəfəri təhsildə, 340 nəfəri səhiyyədə, 300 nəfəri mədəniyyət və başqa sahələrdə çalışan insanlardır. Bunlardan 2871 nəfəri yəni 57,2 % -ni qadınlar, 1843 nəfərini isə yəni 33,5 %-ni gənclər təşkil edir”.

Natiq sonda qeyd edib ki, YAP Samux rayon təşkilatının bütün üzvləri qarşıdan gələn son dərəcədə mühüm hadisəni- 2014-cü il bələdiyyə seçkilərini fəallıqla qarşılayacaq, seçkilərin yüksək səviyyədə keçirilməsində əllərindən gələni əsirgəməyəcəklər. Daha sonra tədbirdə çıxış edən YAP Samux rayon təşkilatının gənclər birliyinin sədri Rəşad Qarayev, rayon qadınlar şurasının sədri Kəmalə Xəlilova və partiya fəallarından Günel Məmmədova və Mirzəmməd Orucov YAP-ın yaranma tarixi barədə və sonrakı illərdəki fəaliyyəti ətrafında fikir bildirdilər. Tədbirin sonunda bir qrup gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi və partiyanın işində fəallıq göstrərən 6 nəfər partiya üzvünə Fəxri Fərman və gül dəstələri təqdim olunub.

***Rövşən RƏSULOV***

# Tərtərdə Yeni Azərbaycan Partiyasının 22-ci ildönümü qeyd olunub



Dünən Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatında partiyanın yaranmasının 22-ci ildönümü münasibətilə rayon təşkilatı idarə heyəti, şura üzvləri, qadınlar şurası, gənclər birliyi üzvləri, ərazi ilk partiya təşkilatı sədrləri, fəal YAP üzvləri, idarə- təşkilat rəhbərlərinin və yerli qəzetin nümayəndələrinin iştirakı ilə toplantı keçirilib.

Öncə tədbir iştirakçıları rayonun mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər. Rayon təşkilatının akt zalında işini davam etdirən tədbirdə çıxış edən YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov partiyanın tarixi zərurətdən yarandığını bildirib: “Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası müstəqilliyimizin qorunması, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın inkişaf etdirilməsi və demokratiyanın bərqərar olmasında mühüm rol oynayıb. Azərbaycanın son illərdə əldə etdiyi uğurlar, qazandığı böyük nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır”.

R.Şabanov bu gün Prezident İlham Əliyevin Sədri olduğu YAP-ın nüfuzunun getdikcə artdığını vurğulayaraq qeyd edib ki, partiyanın cəmiyyətin inkişafına yönəlmiş çoxsaylı sosial layihələr reallaşdırması, gəncləri dövlətçilik və milli maraqlar ətrafında sıx birləşdirməsi onun tərəfdarlarının sayının artmasına səbəb olub: “Məhz əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib”.

Tədbirdə rayon mərkəzi xəstəxanasının həkimi Pərvanə Xuduyeva, rayon təhsil şöbəsinin müdiri Aydın Qarayev, şəhər 1 saylı tam orta məktəbin uşaq-gənclər birliyinin rəhbəri Türanə Bayramova, rayon təşkilatının şurasının üzvü Mehman Babayev, Qarağacı ərazi ilk partiya təşkilatının sədri Lətif Həmidov, rayon təşkilatı idarə heyətinin üzvü Vəli Albəndov və başqaları çıxış edərək, ölkəmizin hər bir vətəndaşının həyatında, yaşayış səviyyəsində ciddi irəliləyişlərin əldə olunmasında Yeni Azərbaycan Partiyasının mühüm rol oynadığını bildiriblər. Çıxış edənlər bir daha vurğulayıblar ki, Azərbaycanın uğurları yalnız bölgənin güclü dövlətinə çevrilməsi ilə məhdudlaşmır, onun beynəlxalq aləmdə yeri və nüfuzu da getdikcə artır.

Təlbirin sonunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni daxil olmuş partiya üzvlərinə vəsiqələr təqdim olunub.

***Ü.ƏSGƏROV***

# YAP uğurlara imza atan mütəşəkkil siyasi partiyadır

Noyabr ayının 21-də Ağcabədidə Yeni Azərbaycan Partiyasının yaradılmasının 22-ci ildönümü ilə əlaqədar təntənəli şəkildə tədbir keçirilib. Tədbir iştirakçıları Heydər Əliyev Meydanına gələrək Ulu Öndərin əzəmətli heykəli qarşısına tər çiçəklər düzülüb.Tədbir başlamazdan öncə Azərbaycan Respublikasının Himni səsləndirilib. Yeni Azərbaycan Partiyasının yaradıcısı Ümummilli Lider Heydər Əliyevin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən Ağcabədi rayon icra hakimiyyətinin başçısı, YAP Siyasi Şurasının üzvü Şahin Məmmədov tədbir iştirakçılarını YAP-ın yaranmasının 22-ci ildönümü münasibətilə təbrik edərək, partiyanın yaranmasında, təşəkkül tapmasında Ulu Öndər Heydər Əliyevin xidmətlərindən, eyni zamanda, YAP-ın ölkənin ictimai-siyasi həyatındakı rolundan danışıb. YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov bildirib ki, bu günlər ölkəmizin hər yerində 630 mindən artıq YAP üzvünü öz ətrafında birləşdirən Yeni Azərbaycan Partiyası 22-ci ildönümünü qeyd edir: “Bu əlamətdar gün təkcə partiyada deyil, doğma xalqımız tərəfindən, Vətənini, dövlətini sevən, onun bu gününə, sabahına, xoşbəxt gələcəyinə inanan bütün vətəndaşlar tərəfindən yüksək bayram əhval-ruhiyyəsi ilə qarşılanır”. Rayon təşkilat sədri partiyanın yaranmasının 22-ci ildönümü münasibətilə bütün YAP üzvlərini 11200 nəfər üzvü olan Ağcabədi rayon təşkilatı adından səmimi-qəlbdən təbrik edərək, onlara siyasi və şəxsi həyatlarında uğurlar arzulayıb. Məruzə ətrafında rayon təşkilatı qadınlar şurasının üzvü Radə Qafarova, rayon təşkilatı gənclər birliyinin sədr müavini Nicat Axundov, rayon mərkəzində yerləşən Heydər Əliyev Mərkəzinin direktoru Fəridə Niftəliyeva, Salmanbəyli kənd ərazi ilk təşkilatının sədri Gülbikə Məmmədova çıxış edərək, YAP-ın ölkənin ictimai-siyasi həyatında aparıcı siyasi bir qüvvə olduğunu diqqətə çatdıraraq, gördükləri işlər barədə məlumat veriblər. YAP Ağcabədi rayon təşkilatının partiyanın 22-ci ildönümü münasibətilə keçirilən müsabiqə və yarışların qaliblərinə, o cümlədən, şahmat üzrə sürətli oyun turnirinin oğlanlar arasında qalibi, şəhər 11 saylı tam orta məktəbin şagirdi Ziya Quliyevə, qızlar arasında qalib gəlmiş şəhər 3 saylı məktəb-liseyin şagirdi Nigar Babayevaya, bədii qiraət müsabiqəsinin qalibi, şəhər 5 saylı tam orta məktəbin şagirdi Xasay Bayramlıya, “YAP Heydər Əliyevin şah əsəridir” mövzusunda keçirilən inşa müsabiqəsinin qalibi “Şənlik” kənd tam orta məktəbin şagirdi Turanə Qurbanovaya və digər qaliblərə YAP Ağcabədi rayon təşkilatının Fəxri Fərmanları və hədiyyələr təqdim olunub. Tədbirdə YAP-ın sıralarına yeni daxil olmuş gənclərə partiyanın vəsiqələri təqdim edilib. Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının siyasi mübarizələrdə keçdiyi inkişaf yolunu əks etdirən film nümayiş etdirilib.





***ZÜMRÜD***

# YAP monolitliyi ilə daim öndə gedən siyasi təşkilatdır

*Ağstafa rayon icra hakimiyyəti YAP Ağstafa rayon təşkilatı ilə birlikdə partiyanın 22 illiyini keçirdi*



Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 21 illik yubileyi münasibətilə Ağstafa rayon icra hakimiyyəti YAP Ağstafa rayon təşkilatı ilə birlikdə partiyanın 22 illiyini keçirdi. Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda ucaldılmış Ulu Öndərin abidəsini ziyarət edərək, önünə gül-çiçək dəstələri qoyublar.

Tədbirdə rayon təşkilatının sədri YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov YAP-ın keçdiyi keşmə-



keşli yola nəzər salaraq, bildirib ki, tarixi zərurətdən yaranan YAP çətin və şərəfli yol keçməklə yanaşı, həm də siyasi-ictimai mühitdə kifayət qədər nüfuz toplamış siyasi təşkilatdır: “Yeni Azərbaycan Partiyası çox böyük tarixi yol keçib. Bu tarixi və şərəfli yolda rayon təşkilatımızın sıraları günbəgün artır. Partiyanın ideyalarına sadiq insanlar, Azərbaycan dövlətinə və dövlətçiliyə sadiq insanlar, ziyalılar, gənclərimiz müstəqilliyimizin bərpa olunmasına, ərazi bütövlüyümüzün qorunmasına sadiq olan insanlar, vətəninə, millətinə bağlı insanlar bu partiyada təmsil olunurlar. Müstəqil Azərbaycanın inkişafı, iqtisadi-sosial və digər sahələrdə inkişaf proqramının işlənməsində YAP-ın tarixi, əvəzedilməz xidməti var”.

Bayram mərasimində YAP Ağstafa rayon təşkilatının veteran partiya üzvləri İlham İbrahimov, Nəriman Mehdixanlı, Dilşad Tağıyeva, gənclərin adından Xəyalə Rüstəmova, rayon təşkilatının qadınlar şurasının sədri Şəhanə Osmanova, təşkilatın gənclər birliyinin sədri Anar Məmmədov və digər partiya fəalları çıxış edərək təməli Ulu Öndər tərfindən qoyulmuş və ümumxalq partiyasına çevrilmiş YAP-ın rəhbərliyi ilə ölkəmizin daxili və xarici siyasət sahəsində qazandığı uğurlardan danışdılar.

Sonda bir qrup partiya fəallarına qiymətli hədiyyələr verildi.

**R.HÜSEYNOVA**

# ADİU-da YAP-ın 22 illiyinə həsr olunmuş tədbir keçirilib



Noyabrın 21-də Azərbaycan Dövlət İqtisad Universitetində (ADİU) Yeni Azərbaycan Partiyasının yaradılmasının 22-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin universitetdə ucaldılmış büstü önünə gül dəstələri düzərək, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Tədbiri giriş sözü ilə açan ADİU-nun rektoru, professor Ədalət Muradov bildirib ki, yaradılmasının 22-ci illiyini qeyd edən Yeni Azərbaycan Partiyası milli dövlətçilik ənənələrinin formalaşmasında, respublikamızın bir çox ölkə əhəmiyyətli problemlərinin aradan qaldırılmasında həlledici rol oynayaraq xalqımızın tarixinin şərəfli səhifələrindən birinə çevrilib: “1992-ci ildə Ümummilli Lider Heydər Əliyevin xeyir-duası ilə Azərbaycanı düşdüyü bütün bəlalardan xilas etmək yolunda atılan ilk müdrik addımlardan biri Yeni Azərbaycan Partiyasının yaradılması oldu. YAP qısa vaxt ərzində təşkilatlanaraq ölkənin ən güclü siyasi partiyasına çevrildi. Bu partiya Azərbaycan dövlətçiliyinin, onun dövlət müstəqilliyinin, bu günün və sabahın qarantı demək idi. Heydər Əliyevin qeyd etdiyi kimi, “Yeni Azərbaycan Partiyası vətəndaşlarımıza və dünya ictimaiyyətinə sübut etdi ki, o, siyasi fəaliyyət göstərməyə, Azərbaycanın taleyüklü məsələlərini həll etməyə qadir bir partiyadır. Ona görə də, Yeni Azərbaycan Partiyası yaşayacaq, inkişaf edəcək, xalqımızı, müstəqil dövlətimizi xoşbəxt gələcəyə aparacaqdır”.

Rektor Ulu Öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, onların ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunmasının prioritet istiqamətlərindən olduğunu qeyd edib. Bu sahədə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın birbaşa təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilən layihələr və proqramların xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə Ümummilli Liderimiz Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın güclü və qüdrətli dövlətə çevrildiyini qeyd edib. Bildirib ki, bu gün Ümummilli Liderimizin əsasını qoyduğu inkişaf siyasəti möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycanı dünya miqyasında nüfuzlu söz sahibinə çevirib: “Prezident İlham Əliyevin inkişaf siyasəti Azərbacanın dünyanın ən sürətlə inkişaf edən ölkələr sırasında yer tutmasını şərtləndirib. Bu siyasətin əsasında insan amili dayanır və Azərbaycan güclü, müasir və nüfuzlu dövlət kimi tanınır”.

YAP Səbail rayon təşkilatının sədrinin müavini Muxtar Nağıyev, YAP Səbail rayon təşkilatının qadınlar şurasının sədri Tərانə Kərimova, YAP ADİU ərazi təşkilatının sədri Zəfər Bayramov və “Sabah” qrupunun tələbəsi Günay Qarayeva partiyanın keçdiyi şanlı yola nəzər salaraq, bu gün ölkənin iqtisadi və siyasi gücünün xeyli artdığını, partiyanın Prezident İlham Əliyevin Sədrliyi ilə cəmiyyətdə yüksək siyasi nüfuza malik olduğunu diqqətə çatdırıblar.

Tədbirin sonunda YAP sıralarına yeni qəbul olunmuş üzvlərə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

**RƏFİQƏ**


## “Nar Mobile” yeni www.narsim.az xidmətini istifadəçilərin ixtiyarına verdi

Artıq istifadəçilər axtarış sistemi vasitəsilə istədikləri nömrəni sifariş edə biləcəklər

Nar mobile

“Nar Mobile” mobil operatoru yeni www.narsim.az İnternet saytını istifadəçilərinin xidmətinə verdi. Bu sayta daxil olanlar istədikləri hər hansı bir “Nar” nömrəsini satışda olan nömrələr arasında axtara biləcəklər. İstifadəçinin axtardığı nömrə sistemdə olarsa, onlayn sorğunu cavanlandırmaqla onu sifariş etmək mümkün olacaq. Sifariş əsasında istifadəçi ilə əlaqə saxlanılır və qısa müddət ərzində nömrə sifarişçiyə təqdim olunur.

Qeyd edək ki, saytda olan axtarış sistemi çox sadədir. İnternet səhifəyə daxil olanlar prefiksi seçdikdən sonra istədikləri nömrəyə uyğun olaraq, istənilən ən azı üç xananı doldurmaqla axtarış edə bilirlər. Axtarışın nəticəsi iki tərzdə - qiymətə və nömrələrin ardıcıllığına görə təqdim olunur. Axtarış nəticəsində sistemdə tapılan nömrələrin tam sayı yuxarıda qeyd edilir. Bu xidmətdən Azərbaycan ərazisində adı, soyadı və əlaqə nömrəsini sistemə daxil etmiş hər bir sifarişçi yararlana biləcək. Gələcəkdə www.narsim.az səhifəsinin əlavə funksiyalar vasitəsilə daha da mükəmmələşdirilməsi gözlənilir.

Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan “Nar Mobile”, 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində “Nar Mobile” daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təklifləri təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. “Nar Mobile” Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.

# Ümummilli Lider Heydər Əliyev dühasından yaranan partiya

YAP İsmayıllı rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaranmasının 22-ci ildönümü qeyd olunub. Əvvəlcə qonaqlar İsmayıllı rayonunun mərkəzi meydanında ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.




Sonra tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Əzizə



Vahabova tədbir iştirakçılarını Yeni Azərbaycan Partiyasının yaranmasının 22-ci ildönümü münasibətilə təbrik edib. O, Yeni Azərbaycan Partiyasının 22 il ərzində ümumxalq partiyasına çevrildiyini, bütün bu müddət ərzində Azərbaycanın inkişafı naminə çalışdığını bildirib. Əzizə Vahabova 1990-cı ilin əvvəllərində Azərbaycanın dərin böhran vəziyyətinə olduğunu, bu böhrandan xalqı və dövləti Ulu Öndər Heydər Əliyevin çıxardığını, xalqın ziyalılarının müraciəti ilə 1992-ci il 21 noyabr tarixində Azərbaycanın taleyində çox mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının yarandığını qeyd edib. O, Ümummilli Liderin əsasını qoyduğu siyasi kursun bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini, bu siyasət nəticəsində hazırda ölkəmizin qüdrətli dövlətə çevrildiyini və regionun lider dövlətinə çevrildiyini vurğulayıb.

Natiq qeyd edib ki, Yeni Azərbaycan Partiyasının avanqard dəstələrindən olan YAP İsmayıllı rayon təşkilatı rayonun ictimai-siyasi həyatında önəmli rol oynamaqla, bu gün ətrafında 7879 nəfər gənci, qadını, müxtəlif peşə sahiblərini və sadə sıravi vətəndaşı birləşdirir; "Rayon təşkilatının boy sırasına fikir versək görərik ki, YAP üzvlərinin 40 %-ni gənclər, 37 %-ni isə qadınlar təşkil edir. Partiya sıralarına qəbul zamanı, Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq, əqidəli, keyfiyyətcə saf, dövlətçiliyimizi müdafiə edən, azərbaycançılıq məfkurəsinə yiyələnən, qəlbən partiyaya bağlı insanların qəbulu əsas meyar kimi götürülmüşdür".

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, professor Eldar İbrahimov tədbir iştirakçılarını bayram münasibətilə təbrik edərək, partiyanın çətin dönəmlərdə yarandığını, həmin dövrdə Azərbaycanın gələcəyini düşünən 91 nəfər ziyalının Ümummilli Liderə müraciət etdiyini və bundan sonra Naxçıvanda 550 nəfər nümayəndənin iştirakı ilə 21 noyabr tarixində Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirildiyini bildirib. E.İbrahimov 1990-cı ilin əvvəllərində ölkəni idarə edən şəxslərin yarıtmaz fəaliyyətinin xalqın səbr kasasının daşmasına səbəb olduğunu, xalqın Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb etdiyini, 1993-cü ildə Heydər Əliyevin Azərbaycanı xilas etməsinin ölkə tarixində mühüm tarixi hadisə olduğunu vurğulayıb. O bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, bu gün də partiyanın Lideri, Ulu Öndərin siyasi varisi möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən aparılan qətiyyətli, alternativsiz, məqsədyönlü siyasət nəticəsində ölkəmiz sürətlə, dinamik şəkildə inkişaf edir.

Rayon icra hakimiyyəti başçısının İsmayıllı şəhəri üzrə nümayəndəsi, ərazi ilk partiya təşkilatının sədri, partiya veteranı Məhərrəm Əhmədov çıxış edərək qeyd edib ki, böyük Öndər Heydər Əliyev dühasından yaranan yeni Azərbaycan Partiyası 22 il ərzində böyük inkişaf yolu keçmiş, regionun lider siyasi qüvvəsinə çevrilmişdir.

Daha sonra tədbirdə çıxış edən Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri Şəmsəddin Hacıyev, millət vəkili Novruzəli Aslanov



çıxışlarında qeyd ediblər ki, bir vaxtlar parçalanmaq, yox olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycan öz müdrik oğlu, dahi şəxsiyyət Heydər Əliyevin düşünülmüş, gələcəyə hesablanmış siyasəti nəticəsində tez bir zamanda inkişaf yoluna qədəm qoydu. Bildirildi ki, bir zamanlar iqtisadi burulğanlar içərisində çalxalanan Azərbaycanın hazırkı büdcəsi mənfur düşmənimiz olan Ermənistanın dövlət büdcəsindən dəfələrlə çoxdur. Ölkəmiz artıq öz inkişaf tempinə görə nəinki Cənubi Qafqazın, həm də regionun lider dövlətinə çevrilib.

Tədbirdə çıxış edən İsmayıllı rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov YAP-ın yaranmasının 22 illiyi münasibətilə qonaqları təbrik edərək, Yeni Azərbaycan Partiyasının Azərbaycanın müasir siyasi tarixində mühüm rolundan danışıb.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya veteranına Fəxri Fərman, YAP-ın sıralarına qəbul edilmiş bir qrup gəncə isə partiya vəsiqələri təqdim edildi.

**ZÜMRÜD**

# Ölkənin aparıcı siyasi partiyası

## *YAP Masallı rayon təşkilatı partiyanın 22 illiyini qeyd edib*

Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatında partiyanın yaranmasının 22-ci ildönümü münasibətilə "Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir" mövzusunda tədbir keçirilib. Tədbir iştirakçıları ilk öncə rayonun mərkəzində ucaldılmış Ulu Öndər Heydər Əliyevin abidəsi





önünə tər gül-çiçək dəstələri düzüblər. Rayon təşkilatının akt zalında davam edən tədbirdə iştirakçılar Ulu Öndər Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev məruzə ilə çıxış edərək bildirib ki, Azərbaycanın son illərdə əldə etdiyi uğurlar, yüksək nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün ölkə Prezidenti İlham Əliyev Cənablarının Sədr olduğu Yeni Azərbaycan Partiyasının bilavasitə fəaliyyəti ilə bağlıdır: "Yeni Azərbaycan Partiyası yarandığı ilk gündən müstəqilliyimizin qorunması, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın inkişaf etdirilməsi, demokratiyanın bərqərar olması ilə bağlı əsas rolu öz üzərinə götürmüşdür".

Rayon təşkilatının sədri onu da vurğulayıb ki, Yeni Azərbaycan Partiyası siyasi səhnəyə XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə gəlmişdir: "Belə bir çətin vəziyyətdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də təsis edilən Yeni Azərbaycan Partiyası qısa müddətdə ölkənin gələcək taleyini müəyyənləşdirən, əsas qüvvəyə çevrilən siyasi təşkilat oldu. Tarixi zərurətdən yaranan partiya ötən 21 ildə xalqa xidmət missiyasını şərəflə yerinə yetirmişdir".

S.Əliyev onu da vurğulayıb ki, Yeni Azərbaycan Partiyasında Ulu Öndər Heydər Əliyev missiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Bu gün qürur hissi ilə qeyd etməliyik ki, artıq Yeni Azərbaycan Partiyasının sıralarında 650 mindən artıq vətəndaşımız birləşir. Bu vətəndaşlarımızın Azərbaycanın bugünkü reallığına verdiyi qiymət və Prezidentimiz, partiyamızın Sədri İlham Əliyev Cənablarının həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə olan münasibətlərinin ifadəsidir".

Tədbirdə Prezident təqaüdçüsü, YAP Masallı rayon təşkilatının şura üzvü Şirvan Əbilov çıxış edərək Yeni Azərbaycan Partiyasının yaradılmasının 22-ci ildönümü ilə bağlı bütün Azərbaycan xalqını təbrik etdi və Yeni Azərbaycan Partiyasının keçdiyi böyük və şərəfli yolla bağlı xatirələrini danışdı.

Bayram mərasimində gənclərdən Nilufər Gözəlova, Sarxan Əhmədov, Nemət Abdullayev, Sərxan Əhmədov, YAP Masallı rayon təşkilatının şura üzvü Qardaş Fətullayev, rayon təşkilatı qadınlar şurasının sədri Naibə Aslanova və başqaları çıxış edərək Yeni Azərbaycan Partiyasının şərəfli mübarizə tarixindən, Ümummilli Lider Heydər Əliyevin doğma xalqına misilsiz xidmətlərindən, partiya sıralarında qadınların, gənclərin səmərəli fəaliyyətinə xüsusi önəm verilməsindən danışdılar.

Yığıncaqda partiya sıralarına yeni qəbul olunmuş bir qrup gəncə partiya üzvlük vəsiqələri, partiya həyatında fəal iştirakına görə bir qrup YAP üzvünə fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunub.

**A.SƏMƏDOVA**

# Yeni Azərbaycan Partiyası - Azərbaycan xalqının qürur mənbəyi

*YAP Cəlilabad rayon təşkilatında partiyanın yaradılmasının 21-ci ildönümü qeyd edilib*



Dünən Yeni Azərbaycan Partiyası Cəlilabad rayon təşkilatında Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 22-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə partiyanın rayon təşkilatının şura və nəzarət-təftiş qrupunun, qadınlar şurası və gənclər birliyinin üzvləri, partiya veteranları, bir qrup partiya fəalları iştirak ediblər.

Tədbir iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda ucaldılmış abidəsi önünə tər gül-çiçək dəstələri düzülmüş, Onun xatirəsini ehtiramla yad ediblər. Tədbir iştirakçıları, həmçinin, Heydər Əliyev Muzeyinə gedərək, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən foto-stendləri və eksponatları maraqla seyr ediblər.

Tədbir daha sonra YAP rayon təşkilatının qərargahında davam etdirilib. Tədbiri giriş sözü ilə YAP rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı açaraq Yeni Azərbaycan Partiyasının 22 il bundan əvvəl Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yarandığını xatırlatmaqla, bu əlamətdar gün münasibətilə tədbir iştirakçılarını və onların şəxsində partiyanın bütün üzvlərini təbrik edib.

YAP Cəlilabad rayon təşkilatının sədri qeyd edib ki, Azərbaycan ziyalılarının təşəbbüsü və Ulu Öndər Heydər Əliyevin gərgin əməyi sayəsində yaranmış Yeni Azərbaycan Partiyasının keçdiyi yol Azərbaycanın müasir tarixinin şərəf yoludur: "Qısa müddətdə təşkilatlanan və güclü siyasi qüvvəyə çevrilən, yaranışından 7 aya yaxın bir müddətdə iqtidar partiyasına çevrilən YAP-ın sıraları bu gün də artamaqda davam edir. Artıq Cənubi Qafqazın ən böyük siyasi təşkilatına çevrilən YAP-ı 650 mindən artıq insan təmsil edir".

Mirsüleyman Mirxaslı hazırda ölkə iqtisadiyyatının yüksək surətlə inkişaf etməsindən, yeni istehsal sahələrinin yaradılmasından, ölkə üzrə tikinti-abadlıq işlərinin geniş vüsət almasından, bütün infrastrukturun yenilənməsindən, əhalinin güzəranının əvvəlki illərə nisbətən xeyli yaxşılaşmasından, respublikamızda sözün həqiqi mənasında sabitliyin bərqərar olmasından ətraflı söz açmış, bütün bu nailiyyətlərin əldə edilməsində ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin xüsusi xidmətlərinin olduğunu vurğulayıb.

YAP rayon təşkilatının sədri bələdiyyə seçkilərinə hazırlıqla bağlı da məruzə edərək bildirib ki, nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq bu sahədə bütün işlər ardıcıl surətdə həyata keçirilir: "Mən əminəm ki, biz sizinlə birlikdə 23 dekabr 2014-cü ildə keçiriləcək bələdiyyə seçkilərini uğurla başa çatdıracaq və Yeni Azərbaycan Partiyasının namizədlərinin bu seçkilərdə böyük üstünlüklə qələbə çalmalarını təmin edəcəyik".

Tədbirdə çıxış edən YAP Cəlilabad rayon təşkilatı sədrinin müavini Ağasəf Bünyatov, rayon təşkilatı qadınlar şurasının sədri Fərqanə Məmmədova, rayon təşkilatı gənclər birliyinin sədri Anar Abdullayev, partiya veteranları, rayon təşkilatının şura üzvləri, Əliheydər Əsədov, Cahangir Muradov və başqaları YAP üzvü olduqlarından qürur duyduqlarını, bundan sonra da ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevi dəstəkləyəcəklərini, bütün siyasi proseslərdə fəal iştirak edəcəklərini bildirib, tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik ediblər.

**R.HÜSEYNOVA**



# YAP Zərdab rayon təşkilatı partiyanın yaranmasının 22-ci ildönümü münasibətilə tədbir keçirib

Bu gün Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatında YAP-ın yaranmasının 22-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül-çiçək dəstələri düzüblər. Tədbirdə rayon təşkilatının şura üzvləri, ərazi ilk partiya təşkilatlarının sədrləri, partiya veteranları, gənc fəallar iştirak edib. Tədbir iştirakçıları Ümummilli Liderin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra Ulu Öndərin partiya və dövlətçilik fəaliyyətinə həsr olunan videoçarxı izləyiblər.

YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova partiyanın 22 illiyinə həsr olunan "YAP - dünənin, bu günün və gələcəyin partiyasıdır" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyev həmişə Azərbaycan xalqının öz taleyinin hakimi olması, bunun üçün iqtisadi və mənəvi baxımdan daim kamilləşməsi uğrunda mübarizə aparıb: "Məhz buna görə Azərbaycan tarixinin Heydər Əliyev dövrü xalqın dövlətçilik ənənələrinin bərpasına möhkəm iqtisadi və mədəni zəminin yaradıldığı, siyasi elitanın, kadr potensialının formalaşdırıldığı, yaradıcı qüvvələrin təşkil edilib istiqamətləndirildiyi, müasir dövlətçiliyin qurulub möhkəmləndirildiyi, azad, demokratik vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatının yaradılması və inkişaf etdirilməsi sahəsində əhəmiyyətli, ardıcıl tədbirlər görüldüyü dövr, bir sözlə, xalqın çoxminillik tarixində, sözün əsl mənasında, qızıl dövr kimi səciyyələnir. Heydər Əliyevin obyektiv tarixi zərurətdən doğan xilaskar qayıdışı Yeni Azərbaycan Partiyasının həyatında yeni dövrün əsasını qoydu. Ulu Öndərin xilaskarlıq missiyasının uğurları Yeni Azərbaycan Partiyasının cəmiyyətdə dayaqlarını möhkəmləndirmiş, populyarlığını artırmışdı. Ötən müddət ərzində partiyanın maddi-texniki bazası müqayisəedilməz dərəcədə möhkəmlənmişdir. Bu proses, Ümummilli Liderimizin layiqli siyasi varisi, möhtərəm Prezidentimiz İlham Əliyevin partiyaya rəhbərliyi dövründə daha böyük əzmkarlıq və yaradıcılıqla davam etdirilmişdir və bütün bunların nəticəsidir ki, bu gün Yeni Azərbaycan Partiyası siyasi gücünü əhəmiyyətli dərəcədə artıraraq, ölkənin siyasi mühitinin hakim təşkilatına çevirilmişdir".

Daha sonra Məruzə ətrafında çıxışlar dinlənilib Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Nailə Əliyeva, YAP Zərdab rayon təşkilatının Gənclər Birliyinin sədri, Zərdab rayon Dövlət Sosial Müdafiə Fondunun müdür əvəzi Ramin Əliyev, Zərdab rayonu Dəkkəoba kənd tam orta məktəbin müəllimi Mayisə Xəlilova, Zərdab rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq- Mühafizə Orqanları Veteranları Şurasının sədri Hüseyn Həsənov partiyanın yaranma tarixi, bugünkü fəaliyyəti və gələcək perspektivləri barədə məlumatla çıxış ediblər.

***İntizarə Məmmədova***

# Tərtər rayon təşkilatı bələdiyyə seçkilərinə hazırlıq işlərini sistemli şəkildə davam etdirir



YAP Tərtər rayon təşkilatının sədri, rayon təşkilatı Seçki Qərargahının rəhbəri Ramiz Şabanov bələdiyyə seçkilərinə hazırlıqla bağlı məlumat verərək bildirdi ki, oktyabrın 29-da bələdiyyə seçkiləri kampaniyasına hazırlıqla bağlı Yeni Azərbaycan Partiyasının (YAP) şəhər və rayon təşkilatları sədrlərinin ümumrespublika müşavirəsində partiyanın yerli strukturlarının qarşıda duran vəzifələrin yerinə yetirilməsi məqsədilə səfərbər edilməsi, irəliyə sürülən namizədlər üçün treninqlərin təşkil edilməsi tövsiyə olundu, seçki kampaniyasının yüksək səviyyədə keçirilməsi üçün digər zəruri tapşırıqlar verildi: "Məhz YAP Tərtər rayon təşkilatı da bu gün öz fəaliyyətini bu tövsiyə və tapşırıqlar əsasında qurub. Dekabrın 23-də ölkəmizdə keçiriləcək növbəti bələdiyyə seçkiləri ilə əlaqədar YAP Tərtər rayon təşkilatında 13 nəfərdən ibarət Seçki Qərargahı yaradılıb. Bunun ardınca hər bir məntəqədə fəaliyyət göstərəcək məşvərətçi səs hüquqlu üzvlər və müşahidəçilər təyin edilib, eləcə də təbliğat kampaniyasında iştirak edəcək fəalların tərkibi müəyyənləşdirilərək rayon təşkilatının müvafiq tarixli heyət iclaslarında təsdiq olunub. Həmçinin, YAP Tərtər rayon təşkilatının Seçki Qərargahının üzvləri arasında iş bölgüsü və Fəaliyyət Proqramı hazırlanaraq, təsdiq edilib". Rayon təşkilat sədri onu da qeyd edib ki, 84 ərazi ilk partiya təşkilatında 5569 nəfər partiya üzvü birləşir ki, onların da 2896 nəfəri qadın, 1415 nəfəri isə gənclərdir: "Hazırda bütün partiya üzvləri bələdiyyə seçkilərinə hazırlıqla bağlı səfərbər olunublar. Rayon üzrə 2 seçki dairəsi mövcuddur: 95 saylı Tərtər və 97 saylı Goranboy-Tərtər-Ağdam Seçki Dairəsi. Tərtər rayon təşkilatı 25 bələdiyyə üzrə seçkilərdə iştirak etmək üçün 229 nəfər partiya üzvünün namizədliyini irəli sürüb. İrəli sürülən namizədlərin 40 faizdən çoxunu qadınlar və gənclər təşkil edir".

Beləliklə, görülən işlər onu deməyə əsas verir ki, YAP bu seçkilərin də qalibi olacaq.

***RƏFİQƏ***

# CİNAYƏT ÜZƏRİNDƏ SİYASƏT QURANLAR

## Və ya AXCP sədri Əli Kərimli cinayətkarların həbsini siyasi dividendinə yazmağa cəhd edir



***Zaman-zaman sağlam düşüncəli cəmiyyət radikal müxalifət "liderlərinin" müxtəlif cinayətləri, hətta məişət zəminində baş verən hadisələrin siyasiləşdirərək, onları öz dividendlərinə yazmağa cəhd etdiklərinin şahidi olub. Əlbəttə ki, bu cür olaylar ətrafında simulyasiyalar edən dağıdıcı müxalifət "liderləri" heç də cinayət törədənlərin səmimi müdafiələrini deyil, məhz öz xeyirlərini güdürlər. Bu amil isə təbii ki, onların özlərinin ictimai rəydə qəbul edilməmələrinin dolayısı ilə etirafı anlamını daşıyır. Məhz bu baxımdan, əllərinə düşən hər bir imkanda-xüsusilə, AXCP sədri Əli Kərimlinin bu istiqamətdəki dividend qazanmaq cəhdi daha qabarıq şəkildə görünməkdədir.***

### AXCP-nin şöbə müdirinin oğlu bilavasitə cinayət üstündə həbs edilib

Məsələn, AXCP-nin şöbə müdiri Rafiq Daşdəmirlinin oğlunun həbs edilməsindən dərhal sonra, cəbhə sədri Əli Kərimli sosial şəbəkədə və özünün nəzarətində olan "Azadlıq" qəzetində bu "imkanı" əldən verməməyə çalışıb. Hansı ki, AXCP-nin şöbə müdirinin oğlu bilavasitə cinayət üstündə həbs edilib. Daha dəqiq desək, narkotik satışına görə. Sənan Dəmirliyə qarşı məhkəmə prosesi keçirilib və barəsində deyilən ittihamla 3 aylıq həbsqətimkan tədbiri seçilməsinə qərar verilib.

Əldə etdiyimiz səhih məlumata görə, məhz bu hadisədən dərhal sonra Rafiq Daşdəmirli Əli Kərimlinin təlimatına uyğun olaraq, oğlunun həbsini özünün siyasi fəaliyyətinə görə ondan qisas almaq kimi qiymətləndirib. Hətta "Azadlıq" qəzetinə verdiyi açıqlamasında o, bunu "Milli Şura"nın mitinqlərindən sonra baş verməsi ilə əlaqələndirməyə çalışaraq, ictimai rəydə çaşqınlıq yaratmağa cəhd edib. Guya Rafiq Daşdəmirli "Milli Şura"nın mitinqlərinin texniki-təşkilati işlərində əsas fiqur (?-M.Q.) olduğu üçün oğlu "şərlənərək" tutulub.

### Əli Kərimli bu həbsdən sevindiyini gizlətməyib

Ancaq digər maraqlı məqam da budur ki, Rafiq Daşdəmirlidən daha çox canfəşanlıq edən yenə də Əli Kərimli olub. Belə ki, AXCP sədri hər zaman olduğu kimi, dərhal özünün facebook səhifəsində bu həbslə bağlı pafoslu fikirlər yazıb. Daima şəxsi səhifəsi vasitəsilə özünə siyasi dividend qazanmağa çalışan Əli Kərimli digər məlum həbsləri də buna qataraq, əslində, həmin həbsdən sevindiyini gizlətməyib. Çünki onun elan edəcəyi növbəti "siyasi məhbus" siyahısında da cəbhəçi Rafiq Daşdəmirlinin narkotik satmaqda ittiham olunan oğlunun adı düşəcək.

### Əli Kərimlinin bu cür alçaq və rəzil üsullarla siyasi mübarizə aparması, hətta AXCP-nin özündə də çox pis qarşılanır

Lakin Əli Kərimlinin bu cür alçaq və rəzil üsullarla siyasi mübarizə aparması hətta AXCP-nin özündə də çox pis qarşılanır. Buna misal kimi, son zamanlar AXCP-də baş verən kütləvi istefaları göstərmək mümkündür. Xatırlatmaq yerinə düşərdi ki, cəbhədən istefa verən tərəflər bilavasitə Əli Kərimlinin yarıtmaz fəaliyyətini, özündən müştəbehliyini və başqa qəbuledilməz cəhətlərini əsas gətirərək, daha onunla bir cərgədə dayanmaq istəmədiklərini bəyan ediblər. Ona görə də Əli Kərimlinin belə olaylardan dividend qazanmaq cəhdləri, xeyir güdmək səyləri hər zamankı kimi, bu dəfə də nəticəsiz qalacaq. Zamanı çatanda isə onun özü törətdiyi əməllərinə görə haqlı cəzasını alacaq. Əlbəttə ki, əl buyruqları ilə birgə şəkildə.

**Mübariz QULİYEV**

# Müsavatçılar Arif Hacılını məhkəməyə verir

***Müsavatın qurultayında əsası qoyulan parçalanma getdikcə daha geniş xarakter daşımaqdadır. Artıq bu partiyanın yaxın vaxtlarda mövcudluğuna son qoyulacağı proqnozlaşdırılır. Maraqlı məqam isə ondan ibarətdir ki, Arif Hacılıdan narazı qalnların partiyadan uzaqlaşdırılmasına cavab olaraq bəzi partiya sədrləri tərəfindən onlara hüquqlarının bərpası üçün məhkəmələrə müraciət olunması təklif olunur. Bu halda sual yaranır məhkəməyə müraciət olunması çıxış yolu sayıla bilərmi?***

"Yurddaş" partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, biz demokratik hüquqi dövlətdə yaşadığımız üçün məsələlərə qanunlar çərçivəsində yaşamaq lazımdır: "Təəssüflər olsun ki, bizim müxalifət partiyalarında təmsil olunan şəxslərdə belə bir ab-hava yoxdur. Arif Hacılı kimilər hesab edirlər ki, Müsavatdan bəzilərini əsaslı olaraq uzaqlaşdırırlar. İddiaların qurbanı olanlar öz hüquqları məhkəmədə araşdıra bilərlər. Eyni zamanda, partiyalarda MNTK-lar fəaliyyət göstərir. Narazı şəxslərin iddialarına MNTK-larında baxıla bilər. Bir sözlə, əgər doğrurdan da haqsızlıq varsa, bu məsələ onların vasitəsi ilə həll oluna bilər.

"Müsavatın parçalanmasından AXCP-nin razı qaldığı müşahidə olunur. Bu nə ilə izah oluna bilər" sualını cavablandıran partiya sədri onu da bildirdi ki, ölkədə siyasi partiyalar nədən ötrü mövcuddurlar? Partiyalar ondan ötrü mövcuddurlar ki, qanunlar çərçivəsində konstitusion yolla mübarizə aparmaqla hakimiyyətə gəlsinlər: "Amma AXCP və Müsavat partiyalarının fəaliyyətinə nəzər salsaq görərik ki, bunların əsası fəaliyyəti bir-biri ilə mübarizə apararaq biri digərini sıradan çıxartmaqdan ibarətdir. Demək olar ki, bunun üçün də mümkün olan və mümkün olmayan vasitələrdən istifadə edirlər. Hazırda Müsavat partiyasında parçalanma prosesləri gedir. AXCP-yə yaxın olan "Azadlıq" qəzeti və s. kimi mətbuat orqanları vasitəsi ilə bu məsələni dərinləşdirmək istəyirlər. Həmin prosesləri çox ciddi şəkildə bu və ya digər yazılar vasitəsi ilə daha da qızışdırırlar. Bununla AXCP Müsavatı gözdən salıb, sıradan çıxartmağa ümid bəsləyir".

**GÜLYANƏ**



SAMİR

## Xədicəni Batumidə necə qucaqladılar

***Lap tutaq ki, Xədicənin şəklini ermənilər əllərində tutublar, üstünə toz belə qonmasın deyə üfləyə-üfləyə qucaqlayıblar. Burda nə var ki? Onun şəklindən "təsəlli" almaq da pis deyil, o boyda insanı qucaqlayıb bağıra basmaqmı olar?! Onsuz da bir plakatı göyə qaldırıb- endirməklə, Xırdalan pivə zavodlarının yekə çəlləklərini xatırladan Xədicənin "incə" görkəminin əks olunduğu şəkli Batumidə camaatın gözünə soxmaqla nə ermənilər qazanacaq, nə də Xədicənin özü... Ən pis halda Xədicənin erməni pulları hesabına "kökəldiyi" ortaya çıxmış olur, onun illər boyunca yediyi milyonların dığaların çirkli pulları olduğu aydınlaşır. Məgər Xədicə bacısı Mətanətə məxsus bağçanı öz jurnalist maaşı hesabınamı tikdirib? Məgər bu bağça ilə üzbəüz padval-pivəxana, qəlyanxana kimi işləyən restoranı Xədicə öz "alın təri" hesabınamı özəlləşdirib? Ya bəlkə Xədicənin Rusiyada erməni diasporunun rəhbəri olan doğma dayısı öz bacısı qızının Himalay dağını xatırladan girinti-çıxıntılarına aşiq olub?***

Vaxt var idi ki, Leyla Yunus özü xüsusi bir pafosla deyirdi ki, məni həbs edənin gərək yüzbaşı olsun. Özünə çox arxayın idi. Onu həbs etməyə yüz başlı insan deyil, elə birbaşlı qanun bəs elədi. İndi yüz dənə də "yunusbaş yığışsa, bu başın öhdəsindən gələ bilməz. Hələ bu "xanım"cığazın 90-cı illərin əvvəllərində elədiyi özbaşınalıqlara görə üzünə duran, onu döyüb-söyən o qədər adam olacaq ki... Elə "Azərsu"da işləyən dostlarımızdan birinin də Leyla Yunusun Müdafiə Nazirliyində işlədiyi vaxtlarda başına nələr gəlməyib ki? Eldar (adı şərtidir) deyir ki, "Nəsimi rayon su idarəsində işləyirdim. Bir də gördük ki, 10-15 nəfər hərbi formada şəxs içəri daxil oldu, ardınca da Leyla. Heç bir şey soruşmadan bizi hərbçilərə döydürdü, sağ-salamat yermizi qalmadı. Özü də bizi rus dilində söyürdü. Nədi-nədi, o yaşadığı binanın suyu cəmi bir saat imiş ki, kəsilibmiş".

İndi sözüm onda deyil ki, Xədicə də Leyla kimi danışır. Hər kimə və nəyə arxayındırsa, deyir ki, məni tutanın gərək iki yüz başı olsun. Ay Xədicə, səni heç kim yox, arxayın ol, elə yaxın dönəmlərdə özün ələ verəcəksən. Sən cəmi QHT-lər haqqında olan qanunun güdazına gedəcəksən. Hələ vergidən yayınmalar, ermənilərə, ABŞ-a casusluq etmək bir tərəfə qalsın. Faktiki olaraq sən yeriyə bilmirsən, ayaqların döşlərinin çəkisini daşıyacaq gücdə də deyil. Bəs haradandır səndə "fövqəladə" məlumatlar? Bütün günü də "Azadlıq" radiosunun ofisində olursan. Necə əldə edirsən bunları? Məsələn, Batumidə keçirilən forumda ermənilərə tərcümə edib məlumat göndərən təsadüfən sən deyilsən ki? Rauf Arifoğlu deyir ki, orada dediklərini "Yeni Müsavat"dan götürüb Bakıda kimlərsə ingilis dilinə tərcümə etdirib ermənilərə ötürürlər. Bu, təsadüfən sən deyilsən ki?

# Hüquqi dövlət, vətəndaş cəmiyyəti və sosial siyasətin əsas istiqamətləri

*Qloballaşma, demokratikləşmə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu proseslərinin sürətli xarakter aldığı müasir dünyada əhalinin yaşayış keyfiyyətinin və həyat səviyyəsinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir.*

R.Abdullayeva və A.Muradov göstərirlər ki, beynəlxalq təcrübə iqtisadiyyatın inkişaf etdirilməsinin və əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasının ilk növbədə ölkədə həyata keçirilən iqtisadi siyasətdən və onun tərkib hissəsi olan sosial siyasətin səmərəliliyindən asılı olduğunu göstərir.

Sosial siyasət vətəndaşların məşğulluğunu, sağlamlığını, sosial təminatını, təhsil səviyyəsini və bir sözlə, yüksək həyat şəraitini təmin etməlidir. Bu isə öz növbəsində dövlətin həyata keçirdiyi sosial siyasətin prinsiplərindən və istiqamətlərindən asılı olub, səmərəli sosial müdafiə sisteminin yaradılmasını tələb edir. Çünki sosial müdafiə həm əhatə miqyasına, həm də tərkib hissəsinə və quruluşuna görə olduqca çoxşaxəli, geniş elmi araşdırmalar tələb edən sahədir. Odur ki, cəmiyyətin sosial-iqtisadi inkişafının təmin olunması istiqamətində məqsədyönlü dövlət siyasətinin aparılması zəruridir. Bu siyasətin həyata keçirilməsində ölkənin iqtisadi inkişaf səviyyəsi ilə bərabər, eyni zamanda onun mövcud iqtisadi sistemi, milli-tarixi ənənələri və s. də mühüm rol oynayır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, hər bir dövlətin həyata keçirdiyi səmərəli və ədalətli sosial siyasət onun maliyyə vəsaitlərinin hansı istiqamətdə və necə bölüşdürülməsindən də bilavasitə asılıdır. Bütün bunlar sosial siyasətin əhalinin rifah halının və həyat səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş mürəkkəb mexanizm olduğunu göstərir.

Müəlliflərin fikrincə, "sosial siyasət" anlayışı iqtisadiyyat və sosiologiya elmində yeni olmasa da, onun mahiyyət və məzmunu haqqında elmi əsərlərdə bəzən bir-birinə yaxın, bəzən də zidd fikirlərə rast gəlmək olur. Lakin buna baxmayaraq, ümumilikdə, verilən bütün təriflər əhalinin müxtəlif sosial-demoqrafik qruplarının sosial müdafiəsinin təmin olunmasını açıqlayır. Belə ki, sosiologiya elmində sosial siyasət anlayışı daha çox: müxtəlif sosial-demoqrafik qruplardan olan əhalinin sosial təminatı, təhsil səviyyəsi, səhiyyə xidməti, gəlirlərinin yenidən bölüşdürülməsi, məşğulluq və s. bu kimi məsələlərin həllinə yönəldilən iqtisadi siyasətin tərkib hissələrindən biri kimi qeyd olunur. İqtisadi ensiklopediyada isə sosial siyasət - əhalinin əsas təbəqələrinin, qruplarının və kateqoriyalarının həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı dövlət siyasətinin tərkib hissəsi kimi göstərilir. Buraya gəlirlərin yenidən bölüşdürülməsi, təhsil və səhiyyə sahəsində siyasət, mənzil şəraiti və s. daxildir. Qeyd edək ki, sosial siyasət beynəlxalq və milli qanunvericilik əsasında insanların hüquqlarının müdafiəsinə istiqamətləndirilmişdir. Sosial siyasətin məqsədi insanın hər hansı bir cəmiyyətdə ali dəyər kimi inkişafı və himayə olunmasıdır. Buradan belə nəticəyə gəlmək olar ki, sosial siyasət konstitusiyaya və yaradılmış qanunvericilik bazasına uyğun olaraq sosial öhdəliklərin yerinə yetirilməsinə və vətəndaşların sosial hüquqlarının möhkəmləndirilməsinə yönəldilmiş iqtisadi siyasətin tərkib hissəsidir. Sosial siyasətin məqsədinə:

- ölkə əhalisinin minimal gəlirlərinə zəmanət verilməsi;
- insanların qabiliyyətlərinin, hər şeydən əvvəl əmək qabiliyyətinin inkişafı və dəstəklənməsi;
- əhaliyə sosial xidmətlərin göstərilməsi və s. daxildir.

Bu və digər məqsədlərin həyata keçirilməsindən ötrü, hər bir dövlət bu sahəyə xüsusi diqqət və qayğı göstərməlidir. Məlumdur ki, hər bir insan həyatda maddi təminatını normal ödəmək üçün çalışmaq, oxumaq, öyrənmək, öz sağlamlığını qorumaq və gələcək həyatını təmin etmək məqsədilə vəsait toplamaq (əmək qabiliyyətini itirdikdə, qocaldıqda, bədbəxt hadisələr nəticəsində əlil olduqda və s. hallarda) məcburiyyətində qalır. Bunu hər bir insanın fərdi şəkildə etməsi qeyri-mümkündür. Ona görə də dövlət özünün sosial siyasətini həyata keçirməklə, qeyd olunan məsələlərin həllində hər bir vətəndaşa yardımçı olur. Dövlətin sosial siyasətinin mahiyyəti müxtəlif sosial qruplar, təbəqələr arasında və eləcə də onların öz aralarında münasibətlərin tənzimlənməsindən, əhalinin maddi güzəranını yaxşılaşdırmaqdan, cəmiyyət üzvlərinin həyat səviyyəsini yüksəltməkdən ötrü şəraitin yaradılmasından, ictimai istehsalda onların iştirakı üçün sosial zəmanət və stimul yaratmaqdan ibarətdir.

R.Abdullayeva və A.Muradov yazırlar ki, müasir dövrdə sosial siyasətin məzmununda ciddi dəyişikliklər baş verdiyi kimi, onun təsir dairəsi də genişlənir. Sosial siyasətin əhatə dairəsinə birbaşa daxil olan obyektlər qismində demək olar ki, bütün sosial və demoqrafik qruplar çıxış edirlər. Sosial siyasət iqtisadi inkişafın mənfi nəticələrinin aradan qaldırılması sərhədlərini aşır. O iqtisadi sistemin müsbət istiqamətdə sağlamlaşdırılması və təkmilləşdirilməsində vasitəçi olur. Bu siyasətdə təkcə gəlirlərin yenidən bölüşdürülməsi mühüm yer tutmur, həmçinin əhalinin sosial xidmətlərlə təminatının, məşğulluğun və əmək haqqının tənzimlənməsinin və s. müxtəlif istiqamətlərdə reallaşır. Dövlətin sosial siyasəti əhalinin yalnız zəif təbəqələrinin sosial müdafiəsi və sosial təminatı ilə məhdudlaşdırıla bilməz və məhdudlaşdırılmamalıdır. Çünki bu siyasətin tərkibi iqtisadi siyasətin sosial aspektləri daxil olmaqla, özəlləşdirmə, maliyyə, vergi, investisiya, gömrük, qiymət və digər məsələləri əhatə edir. Dövlətin sosial siyasəti iqtisadi siyasətin tərkib hissəsi olduğu üçün, hər bir sahədə həyata keçirilən siyasət (gömrük, maliyyə, vergi və s.) sosial siyasətlə sıx əlaqədardır. Yəni dövlətin sosial siyasəti əhalinin aztəminatlı təbəqələrinin pensiya və müavinətlərini nizamlayan siyasət kimi başa düşülməməlidir. Odur ki, sosial siyasət anlayışını insanların həyat tərzinin, iqtisadi fəallığının, onların maraqlarının və tələbatlarının təmin olunmasının yüksəldilməsinə yönəldilmiş dövlətin məqsədyönlü fəaliyyəti kimi başa düşmək lazımdır. Başqa sözlə, sosial siyasət anlayışını sosial sahədə qanunvericilik bazasının qurulması, əhalinin sosial tələblərinin təmin edilməsi və konstitusiyaya uyğun olaraq, vətəndaşların sosial hüquqlarının möhkəmləndirilməsinə yönəldilmiş iqtisadi siyasətin tərkib hissəsi kimi başa düşmək olar. Bu siyasətin səmərəliliyi:

- cəmiyyətdə mövcud olan sosial problemlərin həllinin təmin olunması;
- həyat səviyyəsinin dinamik inkişafı;
- məşğulluğun təmin olunması;
- təhsilin keyfiyyətinin yüksəldilməsi;
- əhalinin sağlamlığının mühafizə olunması meyarlarına görə qiymətləndirilir.

Müəlliflərin fikrincə, dövlətin sosial siyasəti cəmiyyətin bütün qruplarının mənafeyini nəzərə alan sosial ədalət prinsipi üzərində qurulmalıdır. Milli gəlirin bölgüsünü həyata keçirməklə dövlət əhalinin aztəminatlı qruplarının sosial rifah halını yaxşılaşdırmalıdır. Gəlirlərin yenidən bölgüsü bazar iqtisadiyyatı şəraitində sosial ədalət prinsiplərinin bərqərar olmasına xidmət edir. Əks halda cəmiyyətin bir qrup üzvlərinin (varlı təbəqənin) mənafeyi üstün tutulur ki, bu da cəmiyyətdə hərc-mərclik, anarxiya, təbəqələşmə prosesinin güclənməsinə, cinayətkarlıq hallarının artmasına və s. gətirib çıxara bilər. Bununla bağlı qədim yunan filosofu Platon yazırdı: "Varlılıq və yoxsulluq. Bunlardan biri dəbdəbəyə, tənbəlliyə, yeni adətlərə, o biri isə yeni adətlərdən başqa - alçaqlığa və cinayətkarlığa sürükləyir. Belə halların qarşısının alınması, demokratik dəyərlərə əsaslanan cəmiyyət quruculuğu prosesinin həyata keçirilməsindən asılıdır. Əhalinin əmək qabiliyyətli qruplarının məşğulluğunun təmin olunması: onların sahibkarlıq fəaliyyəti üçün münbit şəraitin yaradılması; gəlirlərin səmərəli şəkildə yenidən bölgüsü; kəskin təbəqələşmə prosesinin aradan qaldırılması; orta təbəqənin formalaşması və s. bazar iqtisadi sistemində dövlətin sosial siyasətinin tərkib hissəsini təşkil etməlidir".

Məşğulluq siyasəti. Məşğulluq anlayışı altında əmək qabiliyyəti olan və işləmək istəyən hər bir şəxsin işlə təmin edilməsi imkanı başa düşülür. Başqa sözlə, məşğulluq ölkədə mövcud olan bütün yararlı resurslardan səmərəli istifadə etməklə əmək qabiliyyətinə malik olanların işlə təmin olunması deməkdir. Azərbaycan Respublikasının Əmək Məcəlləsində "Məşğulluq vətəndaşların qanunvericiliyə zidd olmayan və bir qayda olaraq onlara qazanc gətirən hər hansı fəaliyyət" kimi şərh edilir.

Məşğulluq ev təsərrüfatlarının pul gəlirlərinin artmasına təsir göstərməklə əhalinin gəlir əldə etmək imkanlarını genişləndirir. Məşğulluq əmək bazarı və işsizlik problemlərinin həllində və ölkədə məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Ölkədə səmərəli məşğulluq səviyyəsinin aşağı olması yoxsulluğun yüksəlməsinə, cəmiyyətdə bir çox xoşagəlməz hadisələrin (aclıq, xəstəlik, oğurluq, quldurluq və s.) meydana çıxmasına təsir göstərir. Məhz bu səbəbdən məşğulluğa qeyd olunan neqativ halların azaldılmasına və yoxsulluq probleminin həll edilməsinə daha çevik təsir göstərən amil kimi baxılır. Ona görə də məşğulluğun təmin edilməsi hər bir dövlətin sosial-iqtisadi inkişaf strategiyasının başlıca şərtlərindən hesab olunur.

Bu baxımdan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr məşğulluq probleminin həllinə yoxsulluğun azaldılmasına daha çevik təsir göstərən amil kimi baxır və bu sahəyə xüsusi diqqət yetirirlər. Beynəlxalq Əmək Təşkilatının tövsiyyələrində qeyd olunur ki, müasir mərhələdə məşğulluq sferasındakı siyasət təkcə çoxlu sayda iş yerlərinin yaradılması olmamalıdır, layiqli iş yerlərinin təmin olunmaq məsələsi həll edilməlidir. İşçilərin sosial müdafiəsinin gücləndirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi üçün əmək haqqının yüksəldilməsi, məşğulluğun müəyyən sığortası zəruridir.

Məşğulluq zahirən əmək kimi təzahür etsə də, onlar bir-birindən fərqlənir. Belə ki, əgər əmək insanların şüurlu, məqsədəuyğun fəaliyyətidirsə, məşğulluq müəyyən iş yerlərində işçinin konkret əmək kooperasiyasına qoşulmaq üzrə mövcud olan ictimai münasibətidir.

**Vətəndaş cəmiyyətində bölgü siyasəti**

Dövlətin sosial siyasətinin mühüm vəzifələrindən biri də gəlirlərin sosial ədalət prinsipləri əsasında bölüşdürülməsi və təkrar bölgüsünün həyata keçirilməsidir. Qeyd edək ki, iqtisadi ədəbiyyatlarda gəlirlərin bölgüsündəki bərabərsizlik qiymətləndirilərkən müxtəlif yanaşmalardan istifadə olunur. Onlardan birincisi gəlirlərin bir neçə komponentinə əsaslanır. Bu zaman əsas gəlir mənbələrinə görə ümumi qiymətləndirmə aparılır. Burada gəlirlərin bərabərsizliyi əmək haqqından, özünüməşğulluqdan və transfert ödəmələrindən əldə edilən gəlirlərin ümumi gəlirlərdə xüsusi çəkisi ilə müqayisə edilir. Ancaq bu, digər gəlir mənbələrinin bərabərsizliyə təsirinin müəyyən edilməsinə imkan vermir.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb*

# Dünyada hər üç dilənçidən biri Hindistanda yaşayır



Dünyanın ən yoxsul əhalisinin üçdə biri Hindistanda yaşayır. Dünya Bankının yoxsulluq probleminə həsr olunan hesabatına görə, dünyada 1,2 milyard insan gündə 1,25 ABŞ dollarından da az məbləğdə qazancla dolanırlar. Orada deyilir ki, 1981-2010-cu illər ərzində inkişaf edən regionlarda çətinliklə dolanan sakinlərin sayı 30 faiz (əhalinin ümumi sayının 50 faizindən 21 faizinədək) azalmışdır. Britaniyanın "Oxfam" xeyriyyə təşkilatının məlumatına görə, planetin 100 ən zəngin sakini ötən il dünyada yoxsulluğun kökünü birdəfəlik kəsməyə kifayət edəcək miqdarda pul qazanmışdır. Təşkilat ehtimal edir ki, dünya əhalisinin ən yoxsul təbəqələri arasında yoxsulluğu aradan qaldırılması üçün ən varlıların siyahısındakı ilk 100 pillədə qərarlaşan şəxslərin ötən ilki gəlirlərinin 25 faizi kifayət edərdi. 2012-ci ildə bu yüzlüyün xalis gəlirləri 240 milyard ABŞ dollar olmuşdur.

# İşdə baş verən streslər genetik dəyişiklik yaradır?

Məlumdur ki, müntəzəm streslər immun sistemi hüceyrələrinin əslində mövcud olmayan xəstəliklərə qarşı mübarizəyə başlamasına səbəb olur. İşdə çəkişmələrlə bağlı streslər ilk növbədə ürək-damar xəstəliklərinin inkişafına gətirib çıxarır. Heç nəyi başa düşmək istəməyən müdiriyyətlə gərgin şəraitdə ağır iş isə hətta immun sistemində genetik dəyişikliklər doğura bilər. ABŞ-ın Ohayo Universitetinin alimləri işdə tez-tez əsəbiləşən adamların qan nümunələrini tədqiq etmişlər. Mütəxəssislər bu nümunələri eksperiment məqsədilə qəsdən stress vəziyyətinə salınmış laboratoriya gəmiricilərinin qan nümunələri ilə müqayisə etmişlər. Nəticədə alimlər əslində mövcud olmayan xəstəliklərlə mübarizə aparan iltihablaşmış hüceyrələrin meydana çıxdığını aşkar etmişlər. İmmun sisteminin iltihablaşan hüceyrələri ilk növbədə ürəyin, qan damarlarının və qaraciyərin fəaliyyətinə mənfi təsir göstərir. Qeyd etmək lazımdır ki, streslər də orqanizmi gün ərzində çəkilmiş beş siqaret qədər zəiflədir.







sәs

Son səhifə — 22 noyabr


# Bakı 2015 Avropa Oyunlarına 200 gün qalır - möhtəşəm şou




Bakı 2015 Avropa Oyunları ilk Avropa Oyunlarının açılış mərasiminə 200 gün qaldığını qeyd etmək məqsədilə gələn həftə şəhərdə işıqlandırma effektlərindən ibarət möhtəşəm şou təşkil edəcək. Oyunların Əməliyyat Komitəsindən SİA-ya verilən məlumata görə, ilk Avropa Oyunlarının başlamasına qalan 200 günü qeyd etmək üçün noyabrın 24-də İçərişəhərdə şəhəri işıqlandıracaq və diqqətçəkici nümayiş baş tutacaq. Sözügedən məqamı qeyd etmək məqsədilə Bakı 2015-in təsviri əfsanəvi Qız Qalası memarlıq abidəsinin üzərində möhtəşəm şəkildə nümayiş olunacaq və axşam Bakı 2015-lə bağlı xüsusi bir xəbər elan olunacaq. Azərbaycanın gənclər və idman naziri, Bakı 2015 Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov deyib: "İlk Avropa Oyunlarının başlamasına 200 gün qalıb. Bakı şəhəri və Azərbaycan ölkəmizin idman tarixinin mühüm hissəsinə çevriləcək Oyunlara hazırlaşır. Eyni zamanda, biz bütün ölkədə böyük maraq oyadacaq xüsusi bir xəbər elan edəcəyik və mən bu tarixi anı milyonlarla qədər çox sayda insanla paylaşmaq istərdim". Bakı sakinlərini axşam saat 8-də başlayacaq və sonda möhtəşəm işıqlandırma effektlərindən ibarət şou ilə başa çatacaq tədbirdə iştirak etməyə dəvət edirik. Bakı 2015 Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleq deyib: "Açılış mərasiminin başlamasına qalan günlərin geri sayımına davam edirik və şəhərdə hər həftə böyük həyəcan hissi yaşanmaqdadır. Gələn il keçiriləcək Bakı 2015 Avropa Oyunlarında iştirak edəcək Avropanın elit idmançılarına ev sahibliyi etməyə hazırlaşdığımız üçün mən Bakı sakinlərini bizə qoşularaq tədbirlərimizdə iştirak etməyə dəvət edirəm".

# "Lionel "Barselona"da xoşbəxtdir"



Lionel Messinin "Barselona"dan ayrılacağı ilə bağlı yayılan iddialara son qoyulub. Qol.Az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, klubun prezidenti Josep Mariya Bartomeu deyib ki, argentinalı hücumçu başqa kluba transfer olunmayacaq: " Nə bizim Messini satmaq, nə də onun buradan ayrılmaq fikri var. Lionel "Barselona"da xoşbəxtdir. Messinin bizdən müqavilənin uzadılması ilə bağlı istəyi olmayıb. O, hələ də dünyanın ən yaxşı futbolçusudur". Qeyd edək ki, "Barsa"nın 2016-ci ildə Messini satacağı iddia edilirdi.

# "Qarabağ"ın Fransaya gedəcəyi tarix müəyyənləşdi

Avropa Liqasının qrup mərhələsinin V turunda səfərdə "Sent-Etyen"in qonağı olacaq "Qarabağ" klubunun Fransaya gedəcəyi tarix müəyyənləşib. Qol.Az-ın məlumatına görə, Ağdam təmsilçisi oyundan iki gün öncə çarter reysi ilə Fransaya yollanacaq. Noyabrın 25-də Sent-Etyen şəhərinə gedəcək "Qarabağ" oyunun ertəsi günü - noyabrın 28-də vətənə dönəcək. Qeyd edək ki, noyabrın 27-də "Joffrua Qişar" stadionunda keçiriləcək "Sent-Etyen" - "Qarabağ" oyunu Bakı vaxtı ilə gecə saat 00:05-də başlayacaq.



# Pikeyə xəbərdarlıq

"Barselona"nın prezidenti Josep Mariya Bartomeu komandanın futbolçusu Jerar Pikeyə xəbərdarlıq edib. Qol.Az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, klub prezidenti deyib ki, ispaniyalı futbolçu tez bir zamanda əvvəlki formasını bərpa etməlidir: "Pike zədəli deyil, ancaq əvvəlki kimi oynaya bilmir. Polislə olan mühasidən sonra onunla danışmışam. Bizim ondan nə istədiyimizi Pike çox yaxşı bilir. Yalnız o yox, bütün fubolçular komandada problem yaratmamalıdırlar".

# Serena Uilyams ilin qadın tennisçisi seçilib



Məşhur amerikalı Serena Uilyams Qadın Tennis Assosiasiyası (WTA) tərəfindən ilin tennisçisi adına layiq görülüb. AzərTAc Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, S.Uilyams karyerası ərzində bu fəxri ada artıq altıncı dəfədir layiq görülür. ABŞ tennisçisi əvvəllər bu adı 2002, 2008, 2009, 2012 və 2013-cü illərdə qazanmışdı. Serena Uilyamsdan əvvəl ilin tennisçisi titulunu ən çox Martina Navratilova (8) və Ştеffi Qraf (7) qazanıblar. Amerikalı tennisçi yaxşı formadadır və yeni uğura imza ata bilər. Bundan başqa WTA isveçrəli Belinda Bençiçi ilin kəşfi, Sara Errani və Roberta Vinçi duetini isə ən yaxşı cütlük adlandırıb.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi,32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500